# XİN: Fransanın Azərbaycana qarşı qarayaxmaları əsassız və qərəzlidir



Səhifə ⇨ 3

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 192 (30596) 5 sentyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan Prezidenti İlham Əliyev İtaliyaya işgüzar səfərə gəlib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə sentyabrın 4-də Romaya işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Roma şəhərinin “Leonardo da Vinci Rome Fiumicino” hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri qarşıladılar.

**AZƏRTAC**



## İtaliya Avropada Azərbaycanın aparıcı iqtisadi tərəfdaşıdır

Səhifə ⇨ 7

# “Stanoizm”

## *Yaxud anti-Azərbaycan qüvvələrə elegiya əvəzi*



Çox güman, Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Jozep Borrelin mətbuat katibi Peter Stano bu sərlövhəni oxuyub onun “stanoizm”lə assosiasiya olunmasına sevinəcək. Hesab edəcək ki, böyük iş görüb. Amma bu “ostap bender” çox da sevinməsin, çünki yazımız heç də tam mənada onun barəsində deyil. Ümumən, xaricdəki anti-Azərbaycan və ermənipərəstlərin üzərində dayanacağıq. Hərçənd, bu şəxsin pis anlamda motivator rolu oynadığını da bildirməliyik.

**(ardı 4-cü səhifədə)**

## MSK şikayətləri araşdırır



Səhifə ⇨ 3

## Moskvanın ikinci “Vardanyan kartı”na ehtiyacı yoxdur



Səhifə ⇨ 4

## Qərbin Gürcüstanda seçki “ssenarisi”



Səhifə ⇨ 5

## İran Zəngəzur dəhlizinin açılmasına niyə mane olur?



Səhifə ⇨ 3

## Şimal–Cənub dəhlizində “Ulyanovsk–Bakı–Astara” marşrutu



Səhifə ⇨ 11

# Birinci vitse-prezident Mehriban Əliyevanın Paralimpiya qalibi Lamiyə Vəliyevaya təbriki

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan paraatleti Lamiyə Vəliyevanın "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib.**




AZƏRTAC paylaşımı təqdim edir:

"Ura! Növbəti qələbəmiz! Dördqat dünya çempionu Lamiyə Vəliyeva "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazandı! İdmançımızı səmimi-qəlbdən təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərə təşəkkürümü bildirirəm!".

# Birinci vitse-prezident Mehriban Əliyeva paralimpiyaçı Raman Saleyi təbrik edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycanın paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə bağlı paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir:

"Raman Saleyin növbəti qələbəsi! Bürünc medal! İdmançımızın əldə etdiyi medallar məharətin, güclü iradənin və qələbə əzminin layiqli mükafatıdır! Paraüzgüçünü səmimi-qəlbdən təbrik edir, ona yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!".

Xatırladaq ki, Raman Saley avqustun 31-də S12 kateqoriyasında 100 metr məsafəyə arxası üstə üzmə yarışında qüvvəsini sınayıb. O, finişə 1:00:67 dəqiqə nəticə ilə çataraq ikinci olub və gümüş medal qazanıb.

# Belarusla diplomatik əməkdaşlıq fəallaşır

**Sentyabrın 4-də xarici işlər nazirinin müavini Samir Şərifov ölkəmizdə səfərdə olan Belarus Respublikası xarici işlər nazirinin müavini İqor Nazaruk ilə görüşüb.**



Görüş zamanı ali səviyyəli dialoqun iki ölkə arasında qarşılıqlı fəaliyyətin genişləndirilməsinə, təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərinin gücləndirilməsinə və dinamik əməkdaşlığın inkişafına vacib təkan verdiyi xüsusilə vurğulanıb.

Siyasi, iqtisadi-ticarət, mədəni-humanitar və ikitərəfli, eləcə də beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, regional təhlükəsizlik, habelə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında müzakirə aparılıb.

Azərbaycan Respublikasının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yeni əməkdaşlıq sahələri üçün əlverişli imkan yaratdığı vurğulanıb və bu mötəbər tədbirin təşkili ilə bağlı məlumat verilib.

# Baş prokuror Rusiyada

**Sentyabrın 4-də Rusiyanın Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vladivostok şəhərinə işgüzar səfərə gəlib.**





İkitərəfli görüşdə qonaqları salamlayan İqor Krasnov ölkələrimiz arasında yüksək xətlə inkişaf edən tərəfdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edərək, sahibkarlıq üçün münbit şəraitin formalaşmasında prokurorluq orqanlarının önəmini qeyd edib.

Kamran Əliyev rusiyalı həmkarına Şərq İqtisadi Forumunda iştirak üçün dəvətə görə təşəkkürünü bildirib. Baş prokuror Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan mütərəqqi islahatlar barədə məlumat verərək, Rusiya Prezidenti Vladimir Putinin avqust ayında ölkəmizə dövlət səfərinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsində önəmindən bəhs edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Baş prokurorlar mövcud sahəvi əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə iki ölkə baş prokurorluqları arasında hərbi prokurorluq orqanlarının əməkdaşlığına dair Anlaşma Memorandumunu imzalayıblar.

Nümayəndə heyətinin səfəri davam edir.

**XQ**

# Azərbaycan–BƏƏ: 32 illik dostluq və qardaşlıq

**Sentyabrın 4-də Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik əlaqələrin qurulmasının 32-ci ildönümü münasibətilə tədbir təşkil edilib.**



BƏƏ-nin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi cıxış edərək, ölkələrimiz arasında imzalanmış çox mühüm sənəd – Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun əhəmiyyətinə toxub və vurğulayıb ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın və Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində dostluq və qardaşlıq münasibətlərimiz möhkəm təməl üzərində inkişaf edir.

Səfir BƏƏ-nin iri şirkətləri olan "Masdar" ve ADNOC tərəfindən Azərbaycanda mühüm layihələrin həyata keçirildiyini də diqqətə çatdırıb.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov bildirib ki, Azərbaycan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrini dərinləşdirməyə sadiqdir.

Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında genişmiqyaslı yenidənqurma işlərinə başladığını xatırladan nazir müavini deyib: "Azərbaycanın bu çox milyardlıq sərmayəsi keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətlə öz torpaqlarına qayıtması üçün lazımi şərait yaratmaq məqsədi daşıyır. Beynəlxalq ictimaiyyətin səsi Azərbaycanın reabilitasiya və yenidənqurma səylərinə, xüsusilə humanitar minatəmizləmə təşəbbüslərinə daha çox dəstəyin səfərbər edilməsində mühüm rol oynaya bilər. Bu baxımdan, BƏƏ-nin belə çətin dövrdə Azərbaycana göstərdiyi əvəzsiz mühüm yardımı yüksək qiymətləndiririk. Bu dəstək təkcə minaların təmizlənməsindən ibarət deyil, ümidləri bərpa etmək və məcburi köçkünlərin öz evlərinə təhlükəsiz qayıtmasına şərait yaratmaqdır".

***XQ***

# Kəmaləddin Heydərovun İqor Nazarukla görüşü



**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Belarus xarici işlər nazirinin müavini İqor Nazarukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları səmimi salamlayan Kəmaləddin Heydərov xalqlarımız və ölkələrimiz arasında dərin və möhkəm köklərə malik çoxşaxəli münasibətlərin iki dövlət başçılarının siyasi müdrikliyi və qarşılıqlı etimadı sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini xatırladıb.

K.Heydərov Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri və ölkəmizdə fəlakətlərlə mübarizə sahəsində görülən işlər barədə qonaqlara ətraflı məlumat verib, uyğun qurumlar arasında münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu diqqətə çatdırıb.

Ölkələrimizin fövqəladə halların idarə edilməsinə məsul qurumları arasında əlaqələrin dərinləşdirilməsinin qarşılıqlı faydasından danışan İqor Nazaruk səfərlərin, aparılan müzakirələrin münasibətlərin genişləndirilməsinə mühüm töhfə verdiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

***XQ***

# Fransanın insan haqlarından danışmağa haqqı yoxdur

**Fransa tərəfi Azərbaycana qarşı növbəti dəfə təxribata yol verib. Bu ölkənin Avropa və Xarici İşlər Nazirliyi Azərbaycanla bağlı sentyabrın 4-də dərc etdiyi səyahət xəbərdarlığında ölkəmizin hüquq sisteminə kölgə salmağa və "Dağlıq Qarabağ Muxtar Vilayəti", "ətraf rayonlar" kimi ifadələrdən istifadə edərək Azərbaycanın ərazi bütövlüyünə xələl gətirməyə cəhd göstərib.**

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Bəyanatda, həmçinin qeyd olunub: "BMT Nizamnaməsi ilə üzərinə düşən dekolonizasiya öhdəliklərini yerinə yetirməyən, neokolonializm siyasəti aparan və bununla da milyonlarla insanın təməl hüquqlarını pozan Fransanın insan hüquqlarından danışmağa haqqı yoxdur. Ermənistanın ən azı sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, Fransanın buna getməməsi onun Azərbaycana qarşı nə dərəcədə qərəzli yanaşdığını göstərir".

## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

**Sentyabrın 4-ü saat 19:35 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

**XQ**

# Hərbi attaşelər Səngəçal terminalında

**Ölkəmizdə akkreditə olunmuş hərbi attaşelər bu gün mühüm strateji obyekt olan Səngəçal terminalında olublar.**

Terminalla tanışlıq Azərbaycanın neft-qaz sənayesinin tarixini dolğun əks etdirən Xəzər Enerji Mərkəzindən başlayıb. Bildirilib ki, mərkəzin istifadəyə verilməsi Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin işə salınması ilə bağlı keçirilən təntənəli mərasim vaxtı baş verib. Prezident İlham Əliyev və Böyük Britaniya Kral ailəsinin üzvü Şahzadə Endryü qırmızı lenti kəsərək Xəzər Enerji Mərkəzinin rəsmi açılışını elan ediblər və tədbirdə iştirak edən ali qonaqlar açılış mərasimində rəmzi nişan kimi gipsdən olan kərpiclər üzərində öz əl izlərini qoyublar. Bu nişan Xəzər Enerji Mərkəzinin rəmzinə çevrilib.

BP şirkətinin hökumətlə işlər üzrə baş müşaviri Qivami Rəhimli qonaqlara şirkətinin regionda fəaliyyəti barədə təqdimat edib. Bildirilib ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft quyusu 1846-cı ildə Bakıda – Bibiheybət ərazisində qazılıb. 1878-ci ildə Xəzər dənizində suya salınan Nobel qardaşlarının "Zərdüşt" ("Zoroastr") gəmisi dünyada ilk neft tankeri, 1897–1907-ci illərdə Bakıdan Batumiyə çəkilmiş boru xətti dünyada ilk ən böyük neft kəməri (833 km) olub.

Azərbaycan həm də dünyada ilk dəfə olaraq 1949-cu ildə Xəzərin "Neft daşları" yatağındakı platformadan neft çıxarmağa başlayıb və bu, Ginnesin Rekordlar Kitabına ilk dəniz neft platforması kimi düşüb.

Sonra qonaqlar avtobusla Səngəçal terminalının əməliyyatlar sahəsinə gedərək bu infrastrukturla, oradakı texnoloji qurğularla tanış olublar.

# XİN: Fransanın Azərbaycana qarşı qarayaxmaları əsassız və qərəzlidir



**"Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda, guya, Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirirək, Azərbaycana dair açıqladığı sərt səyahət xəbərdarlığını qətiyyətlə pisləyirik".**

Bu barədə XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı bəyanatına dair şərhində deyilir.

Bildirilir ki, Fransa tərəfindən verilmiş bu cür əsassız və qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir:

"Fransa vətəndaşlarının əsassız olaraq saxlanıldığı və həbs edildiyi barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunmasıdır.

Azərbaycanda indiyə qədər yalnız Fransa Respublikasının vətəndaşı Martin Rian ötən ilin 4 dekabr tarixində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqonun Bakı Metrosunda törətdiyi əmələ görə saxlanıldığı məlumdur.

Bunun əksinə, Fransa tərəfindən Azərbaycan jurnalistlərinin Fransaya, hətta digər Şengen ölkəsi ərazilərinə səyahətləri zamanı tətbiq etdiyi maneələr Fransanın təbliğ etdiyi "insan hüquqlarına" tamamilə zidd olduğu aydındır.

Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquqi pozuntuları, neo-kolonial siyasəti, irqçilik, diskriminasiya, İslamofobia, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur. Buna görə də, Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

Biz bir daha Fransa tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik".

*XQ*

# MSK şikayətləri araşdırır

**Sentyabrın 4-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**



İclasda sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Beynəlxalq müşahidə missiyası və media subyektləri nümayəndələrinin bilavasitə iştirakı ilə keçirilən iclasda əvvəlcə müraciətlər barədə ətraflı məlumat verilib, eyni zamanda, araşdırma və baxılma prosesinə dair qanunvericiliyin tələbləri bir daha diqqətə çatdırılıb.

Komissiya üzvlərinin geniş müzakirəsindən sonra vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada operativ şəkildə baxılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin cari məsələlərə də baxılıb.

*XQ*

# Pakistanla hüquqi əməkdaşlıq genişlənir



**Azərbaycanın Ədliyyə naziri Fərid Əhmədov sentyabrın 4-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin ilə görüşüb.**

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın yüksək qiymətləndirildiyi, qarşılıqlı səfər və görüşlərin bütün sahələrdə əməkdaşlığın inkişafına töhfə verəcəyi qeyd olunub.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında hüquqi sahədə əlaqələrin inkişafından məmnunluq ifadə edilib, ekstradisiya və məhkumların verilməsi üzrə sıx əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Görüşdə hüquqi əməkdaşlığın gələcək perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

*XQ*

# İran Zəngəzur dəhlizinin açılmasına niyə mane olur?

**Hər zaman Cənubi Qafqazda sülh və sabitliyin hökm sürməsində maraqlı olduqlarını, regiondakı problemləri bölgə ölkələrinin özlərinin həll edəcəyini bildirən İran İslam Respublikasının rəsmi şəxsləri, təəssüf ki, əməldə fərqli yanaşma nümayiş etdirirlər. Bu yanaşma Ermənistan və Azərbaycan arasında nəqliyyat kommunikasiyalarının açılması məsələsinə münasibətdə də özünü əyani şəkildə göstərir.**



Rəsmi Tehran İrəvanın 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndi ilə üzərinə götürdüyü və 4 ilə yaxındır icra etmədiyi öhdəliyi yerinə yetirməsinin əksinə gedərək, onu bu prosesdən uzaqlaşdırır. Halbuki, həmin bənddə bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa ediləcəyi, Ermənistan tərəfinin vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verəcəyi, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarının həyata keçirəcəyi açıq-aydın yazılıb. Eyni zamanda, qeyd edilib ki, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin olunacaq.

İran tərəfi çox yaxın münasibətdə olduğu Ermənistanı təşviq edir ki, həmin bəndi yerinə yetirməsin. Daha doğrusu, öhdəliyini icra etməsin. Hələ 44 günlük Vətən müharibəsinin başa çatmasının az sonra – 2020-ci ilin dekabrında Ermənistana səfər edən İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif bildirmişdi ki, Ermənistanın ərazi bütövlüyü onlar üçün "qırmızı xətt"dir. Ötən 4 ilə yaxın müddət ərzində Tehranın mövqeyi dəyişməz olaraq qalıb. Bəlkə də İranın bu yanaşması olmasaydı, İrəvan nəqliyyat dəhlizlərinin açılmasına çoxdan razılıq vermişdi. Bu da maraqlıdır ki, İranda mühafizəkarlar iyulun 28-də və iyulun 5-də keçirilən (müvafiq olaraq birinci və ikinci tur–S.H.) növbədənkənar prezident seçkiləri nəticəsində öz yerlərini islahatçılara versələr də, Tehranın Zəngəzur dəhlizinə yanaşması dəyişməyib. Gözlənildiyi kimi, xarici siyasətdə ciddi korrektələr edilməyib. Yəni, Tehran yenə Zəngəzur dəhlizinə özünün "qırmızı xətt"i kimi baxır.

İran nəinki özü Ermənistana Zəngəzur dəhlizini açmağa imkan vermir, həmçinin üçtərəfli bəyanatı imzalayan ölkələrdən biri olan Rusiyanın da prosesdə müsbət rol oynamasının qarşısını almağa çalışır. Rusiyanın Tehrandakı fövqəladə və səlahiyyətli səfiri Aleksey Dedovun bugünlərdə İran Xarici İşlər Nazirliyinə çağrılması bunun göstəricisi hesab oluna bilər.

İran Xarici İşlər Nazirliyinin Avrasiya Baş İdarəsinin rəisi və nazirin köməkçisi Müctəba Dəmirçilu səfiri qəbul edib. Görüş Moskvanın Zəngəzur dəhlizinə dəstək verən açıalqmalarına etiraz əlaməti olaraq keçirilib. Dəmirçilu bildirib ki, Tehran regionun müəyyən edilmiş sərhədlərində istənilən geosiyasi dəyişikliyə (?) qarşıdır. Bununla bağlı yayılan məlumatda qeyd edilib ki, baş idarə rəisi rusiyalı diplomata İran dövlətinin qəti mövqeyinə hörmətlə yanaşmağın vacibliyini və region ölkələrinin potensialından problemlərin həlli, bölgədə sülh və sabitliyin təşviqi, habelə bütün tərəflərin maraqlarını nəzərə almaqla iqtisadi planların həyata keçirilməsi üçün istifadə edilməsinin vacibliyini xatırladıb.

Qeyd edək ki, Rusiya rəsmiləri bu yaxınlarda Zəngəzur dəhlizinin açılması ilə bağlı açıqlamalar veriblər. Ölkənin Xarici işlər naziri Sergey Lavrov avqustun 19-da Rusiyanın "Birinci kanal"ına açıqlamasında deyib ki, Rusiya Federasiyası üçün İrəvanın Zəngəzur bölgəsi vasitəsilə kommunikasiyaların açılmasına dair razılaşmanı niyə sabotaj etdiyini anlamaq çətindir. O qeyd edib ki, Moskva Ermənistanla Azərbaycan arasında sülhün tezliklə bağlanmasının tərəfdarıdır: "Biz sülh müqaviləsinin tezliklə bağlanmasının və kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təəssüf ki, Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı sazişi sabotaj edən Ermənistan rəhbərliyidir. Belə bir mövqeyin mənasını anlamaq çətindir. Amma mən əminəm ki, üçtərəfli görüşlər çərçivəsində, üçtərəfli sənədlərdə qoyulan təməl tam şəkildə aktual olaraq qalır".

O vurğulayıb ki, bu gün əsas məsələ Rusiya, Azərbaycan və Ermənistan liderləri rasında 2020-2022-ci illərdə əldə olunmuş bir sıra üçtərəfli sazişlərin ruhuna əməl etməkdir.

Bundan bir neçə gün sonra isə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Zəngəzur dəhlizi Ermənistandan keçməklə Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirə biləcək marşrutdur. Onun sözlərinə görə, dəhlizin açılması Ermənistanla üçtərəfli sülh danışıqları çərçivəsində mütləq müzakirə olunacaq və Moskvanın İrəvanla Bakı arasındakı nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı mövqeyi yaxşı məlumdur: "Rusiya Federasiyası ondan çıxış edir ki, müvafiq anlaşmalar qarşılıqlı razılaşma əsasında və həm Ermənistanın və Azərbaycanın, həm də regiondakı qonşu dövlətlərin – Rusiyanın, İranın və Türkiyənin maraqlarına cavab verməklə həyata keçirilməlidir".

Ancaq bütün bu yüksək səviyyəli açıqlamalara baxmayaraq, İran tərslikdən əl çəkmək istəmir. Tehranın dəhlizin açılmasına qarşı niyə belə ciddi-cəhdlə çıxdığı anlaşılan deyil. İran hakimiyyəti özü də çox yaxşı bilir ki, Zəngəzur dəhlizinin açılması Ermənistanın ərazi bütövlüyünün pozulması demək deyil. Rəsmi Bakı dəfələrlə Ermənistan ərazisindən eksterritorial qaydada (eksterritorial yurisdiksiya hökumətin öz hakimiyyətini sərhədlərindən kənarda həyata keçirmək imkanıdır–S.H.) dəhliz açmaq niyyətində olmadığını bəyan edib. Azərbaycana lazım olan Naxçıvan MR ilə sərbəst, yüklərin və insanların yoxlamaya məruz qalmadan gediş-gəlişin təmin olunmasıdır.

İndi bəlkə də Ermənistanla Zəngəzur dəhlizi məsələsində razılığa gəlmək, Nikol Paşinyanı özünün imzasına hörmət etməyin vacibliyinə inandırmaq olar. Paşinyan da dərk edir ki, dəhlizin açılmasından faydalanan həm də onun başında dayandığı ölkə və onun vətəndaşları olacaq. Ancaq İran Ermənistanın razılığa gəlməsinə heç cür imkan vermir. İran bu mövqeyini sonuncu dəfə ən yüksək səviyyədə 2024-cü il iyulun 30-da təkrarlayıb. Ölkənin Ali Rəhbəri Əli Xameneyi həmin gün Tehranda N.Paşinyanı qəbul edərkən deyib: "İran hələ də hesab edir ki, Zəngəzur dəhlizi ideyası Ermənistanın maraqlarına ziddir". Bu yerdə cənab Xameneyiyə sual ünvanlamaq yerinə düşər. Birincisi, necə ziddir? İkincisi, tutaq ki, ziddir, İran Ermənistanın vəkilidirmi? Bu məsələdə qərar verən Ermənistandırsa, Tehranı narahat edən nədir?

İranın bu mövqeyi üzündən 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanla münasibətlər pisləşib. İndi isə aydın görünür ki, İranla Rusiya arasında da soyuqluq yaranıb. Tehran Moskvanın Zəngəzur dəhlizinin açılmasına dəstək verməsindən narahatdır. Əslində, Tehranın Moskvaya etirazı onu deməyə əsas verir ki, bu "qırmızı xətt" təkcə Bakıya qarşı yox, dəhlizin açılmasında maraqlı olan bütün qüvvələrə qarşı çəkilib.

Əslində, Tehran da yaxşı bilir ki, dəhlizin açılması Ermənistanın beynəlxalq hüquqla tanınan ərazilərini dəyişdirməyəcək. Üçtərəfli Bəyanatda da hansısa ilhaqdan deyil, maneəsiz hərəkətdən bəhs olunur. İranın bu dirənişi, Ermənistanı dəhlizi açmağa imkan verməməsi isə heç də İrəvanın maraqlarını düşündüyü üçün deyil. Tehran Zəngəzur dəhlizinin işə düşməsi ilə hansısa qazancdan məhrum olacağını düşünür, bu səbəbdən layihəni ilk növbədə özünə qarşı görür. İranın mötədil gündəlik qəzeti "Ettelaat"da Rusiyanın Ermənistan və bütövlükdə regionla bağlı siyasəti haqqında məqalədə əksini tapan fikirlər İslam respublikasının layihəyə qarşı çıxmasının əsl səbəblərini ortaya qoyur. Məqalədə "Rusiya Zəngəzurla bağlı öz mövqeyində niyə bu qədər inad göstərir və bu israrın nəticələri nə ola bilər?" sualı qoyulur. Suala cavab verən xarici siyasət üzrə baş ekspert və beynəlxalq əlaqələr üzrə analitik Əli Biqdeli deyib: "Zəngəzura gəlincə, bu region son dərəcə həssasdır. Bu, yük maşınlarının və onların qoşqularının Ermənistana və Azərbaycana, oradan Qarabağa (?), Gürcüstana və nəhayət, Avropaya keçməsi üçün mühüm marşrutdur. Uzun illər mallar Türkiyə və Ermənistandan İrana gəlir, sonra isə müvafiq olaraq Azərbaycana və Avropaya göndərilirdi. Beləliklə, İran tranzit haqqı alırdı. Amma Ermənistanın Qarabağı itirməsindən sonra (?) vəziyyət dəyişdi. O zaman Ermənistanla çox yaxın münasibətlərə baxmayaraq, İran müəyyən qədər Azərbaycanı dəstəkləyirdi. Hətta türkdilli iranlılar (?) da daha çox Azərbaycan tərəfdarı idilər. İranın məqsədi daxili gərginliyi azaltmaq idi. İndi bu şəraitdə Zəngəzur problemlə üzləşsə, Avropa ilə əlaqəmiz kəsiləcək. Yeni marşrut açılsa, bu, mütləq bizim ixtiyarımızda olmayacaq. Qədim zamanlardan bizim üçün son dərəcə vacib olan bu marşrut indi bizi tərk edir".

Yazıda bildirilib ki, Türkiyə Zəngəzur vasitəsilə mallarını Azərbaycana göndərə və Xəzər dənizindən keçməklə Mərkəzi Asiya və Pakistana çıxa biləcək. Həmçinin, qeyd edilib ki, Yaxın Şərqdə vəziyyət sürətlə mürəkkəbləşir və Rusiya İranın maraqlarına əhəmiyyət verməyərək, ilk növbədə öz maraqlarını düşünür. İranlı ekspertin fikrincə, Rusiya Zəngəzur dəhlizinin açılması ilə bağlı öz qərarından çətin ki, əl çəksin. Çünki Türkiyə ilə Rusiya arasında da xüsusi münasibətlər formalaşıb. İki ölkənin bir-birini dəstəkləyərək özlərinə yeni bazar yaratması və bazarlarını Çinə genişləndirməyə çalışacaqları gözlənilir.

Göründüyü kimi, İran Zəngəzur dəhlizinə qarşı çıxmaqla, əslində, özünün maraqlarını düşünür. Ermənistanı isə öz mənafeyinə açıq-aşkar qurban verir. Rəsmi İrəvanın bu gerçəkliyi anlaması və dəhlizin açılması məsələsində yersiz inaddan əl çəkməsi, fitnə-fəsada uymaması gərəkdir...

***Səxavət HƏMİD***
***XQ***

# Moskvanın ikinci “Vardanyan kartı”na ehtiyacı yoxdur

## *Bəzi qüvvələr Rusiya–Azərbaycan müttəfiqliyinə zərbə vurmağa cəhd edirlər*

**Dirijor çubuğunun yuxarı qalxmasını gözləyən orkestrin ifaçıları kimi, Rusiyadakı bəzi siyasətçilər, “müstəqil” ekspertlər, deputatlar, QHT təmsilçiləri də son vaxtlar Azərbaycanı təhdid etməyə, Qarabağ məsələsində ölkəmizi haqsız çıxarmağa cəhdlər edir, rəsmi Moskvanın Azərbaycana münasibətdə mövqeyinə zidd siyasət sərgiləməklə müttəfiqlik səviyyəsinə qalxmış ölkələrarası münasibətlərə kölgə salmağa çalışırlar.**



Rusiya Dövlət Duması komitə sədrinin müavini Konstantin Zatulinin ermənipərəst, anti-Azərbaycan çıxışlarına birinci dəfə deyil şahidlik edirik. Bu dəfə, o, bir az da irəli gedərək, Qarabağ separatçılarına “artsaxın yubileyi” münasibətilə təbrik ünvanlayıb. Çox güman ki, onun bu addımı atmaqda məqsədi növbəti siyasi avantürası ilə gündəmə gəlməkdir. Əgər belə olmasaydı, dörd il əvvələ kimi bölgədə terrorizmi və separatizmi dəstəkləməz, indi isə insanlığa qarşı törətdikləri ağır cinayət əməllərinə görə Femida qarşısında cavab verməli olan bir rejimin fərari təmsilçilərinə təbrik müraciəti göndərməzdi. Rusiya qanunverici orqanının səlahiyyətli nümayəndəsi üçün bu hərəkət rəsmi siyasi kursa qarşı olmaqla yanaşı, həm də ədalətdən uzaq və çox uğursuz bir addım sayılmalıdır. Dövlət Dumasının yüksək ranqlı təmsilçisinin belə “avantürist siyasi romantizmə” ayıq başla yol verməsinə bizdə ciddi şübhələr yaranıb. İqtidardakı “Vahid Rusiya” Partiyasının üzvü olan şəxsin belə təxribatçı və səbatsız müraciətini başa cür şərh etmək mümkün deyil.

**

Zatulinin istinad etdiyi “2020–2023-cü il hadisələri”, 30 illik separatizmə, işğala, terrorizmə və iztirabına son qoymuş Vətən müharibəsi və lokal antiterror tədbirləri tarixin arxada qalmış səhifələridir. Azərbaycan məhz bunların sayəsində Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaratdı, sülh, sabitlik və təhlükəsizliyin möhkəm zəminini formalaşdırdı. Dumanın komitə sədri müavininin yol verdiyi siyasi davranışı hazırda bölgədə cərəyan edən hadisələrin fonunda “Qafqaz evi”ndə sülhə və əməkdaşlığa yalnız zərər vuaracaq məkrli niyyət kimi dəyərləndirmək olar.

Batumidə hərbçi ailəsində doğulmuş, iki gündən sonra 66 yaşı tamam olacaq Konstantin Zatilinin Rusiyadakı erməni diasporu ilə “isti əlaqələri” barədə mediada məlumatlar dolaşmışdı. Xüsusilə, Zəfərimizlə başa çatmış 44 günlük müharibədən sonra onun haypərəst ritorikasının daha da güclənməsi medianın bu ehtimalının reallıqla üst-üstə düşməsinə şübhə yeri qoymur. Belə görünür ki, iqtidar düşərgəsində yer alsa da, siyasət meydanında hələ də yerini tuta bilməyən deputat dediyi sözlərin, verdiyi bəyanatların, ölkə xaricinə göndərdiyi məktubaların törədə biləcəyi fəsadları hesablamaq iqtidarında deyil. Bunu anlamış olsaydı, münaqişəni yenidən körükləməyə hesablanmış cəfəng açıqlamalardan, xam xəyallardan əl çəkərdi.

“Bu, başqa bir dövlətin suverenliyinə müdaxilədir”. Rusiya Dövlət Dumasının daha bir deputatı, hüquqşünas Aleksandr Tolmaçev Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin beynəlxalq ictimaiyyətin Ermənistana silahlı qüvvələrinin inkişafına məhdudiyyətlər qoymalı olması ilə bağlı bəyanatını “Alpha News”a bu formada şərh edib. Deputatın fikrincə, qonşusu ilə müharibə şəraitində olan ölkənin silahlanması onun daxili məsələsidir: “Tərəflərdən biri qarşı tərəflə bağlı beynəlxalq ictimaiyyətə müraciət edərək, onun silah və silahlı qüvvələrinin sayını məhdudlaşdırmasının lazım olduğunu söyləməsi başqa dövlətin suverenliyinə müdaxilə deməkdir. Məsələn, Yaponiya ordusu ilə müqayisə aparmağa çalışanda deyirlər ki, ordumuz yoxdur, çünki İkinci Dünya müharibəsindən sonra onlar da Almaniya kimi, özünümüdafiə ilə məhdudlaşırlar. Bu zaman çaşqınlığa ehtiyac yoxdur. Çünki 80 il əvvəl müttəfiqlərin beynəlxalq koalisiyası Almaniyaya qalib gəldi. Onlar həm də buna görə Yaponiya ilə sülh müqaviləsinin şərtlərini diktə etdilər”.

Reallıqdan min kilometr uzaq, yersiz və aidiyyatsız müqayisəyə yol verən A.Tolmaçev bu kontekstdə hətta Bakıya məsləhət verməkdən də çəkinmir: “Məsələ ondadır ki, Azərbaycan nədənsə qorxursa, o zaman suveren dövlət kimi silahlı qüvvələrini gücləndirməyə, inkişaf etdirməyə, səfərbərlik və sair tədbirləri həyata keçirməyə tam haqqı var”.

Deməli, Ermənistan Almaniya, Yaponiya kimi məğlub tərəf deyil, boynuna da silahlanma ilə bağlı, onlar kimi, heç bir öhdəlik götürməyibmiş. İndi, o, dünyanın dörd tərəfindən ölkəsinə kütləvi qırğın silahları daşıya bilər. Hüquq təhsili almış rusiyalı deputat açıqlamasında bunu qırmızı-qırmızı dilə gətirir: “Ermənistan da bunu edə bilər. Ermənistan məğlub olmuş, sülhə məcbur edilmiş və bunu sülh müqaviləsində qeyd etməyə məcbur edilmiş işğalçı ölkə (?) olsaydı, bu, mümkün olardı. Amma bu gün Ermənistanın silahlı qüvvələrini ixtisar etməsi ilə bağlı istənilən cəhdlərin bununla heç bir əlaqəsi yoxdur. Ermənistanın daxili qanunları bu gün belə bir ordunun olmasına icazə verir, amma sabah başqa ordu da ola bilər. Hər şey parlamentdən, Ermənistan hökumətinin istəyindən və büdcənin bu və ya digər ordunu dəstəkləmək qabiliyyətindən asılıdır”.

Dövlət Dumasının üzvü Tolmaçevin demədiyi bircə o qalıb ki, Ermənistan nəinki qonşu ölkənin torpaqlarını işğal etməkdə haqlı olub, üstəlik, onun öz konstitusiyasına bu ölkəyə qarşı ərazi iddialarını daxil etməsi də normal sayılmalıdır.

*

Qondarma “erməni məsələsi”in üzərindən 100 ildən çox vaxt keçib. Artıq hayların təkcə “miatsum” kimi sərsəm ideyası deyil, milyardlarla dollarla ölçülən, siyasi avantüra ilə müşayiət olunan lobbiçilik mexanizmləri də öz əhəmiyyətini itirmişdir. Azərbaycan torpaqlarını işğaldan azad etməklə yanaşı, bölgədə təhlükəsizliyin, sabitliyin təmin olunmasına maneəçilik törədən, bu məqsədlə yüz minlərlə insanın faciəsinə yol açan, radikal-revanşist separatizmdən faydalanmağa cəhd göstərən bütün xarici aktorların riyakar planlarını birdəfəlik pozdu.

Sonda onu da nəzərə çatdıraq ki, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiya Federasiyası Dövlət Dumasının MDB komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin təxribatçı videomüraciəti ilə əlaqədar Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinə məktub göndərib. Zatulinin dövlətçiliyimizin və xalqımızın əleyhinə bəyanatlar verdiyi vurğulanan məktubda Azərbaycan tərəfinin bu cür nalayiq halların qarşısını almaq üçün Rusiyanın rəsmi orqanlarına dəfələrlə müraciət etməsinə baxmayaraq onun ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə xələl gətirən təxribatçı fəaliyyətinə qarşı hələ də təsirli tədbirlər görülmədiyi qeyd olunur.

Məktubda P.Bülbüloğlu, həmçinin V.Volodindən Rusiyanın rəsmi mövqeyinə və Dövlət Dumasının reqlamentinə uyğun olaraq, bu məsələyə prinsipial yanaşmasını və Zatulin tərəfindən gələcəkdə bu cür təxribatçı hərəkətlərin qarşısını almaq üçün mümkün olan bütün tədbirləri görməsini təkidlə xahiş edib.

Bu gün “kollektiv Qərb”, ermənipərəst qüvvələr da yaxşı bilirlər ki, Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması Rusiyanın strateji maraqlarına cavab verir. Daha Kremlin “Vardanyan kartı”ndan istifadə etmək kimi istəyi də yoxdur. Bu səbəblərdən Rusiyadakı erməni lobbisinin təxribat xarakterli açıqlamalar verdirməklə, yazılar yazdırmaqla vasitəçilərsiz sülh danışıqlarına, eləcə də Azərbaycan–Rusiya münasibətlərinə zərbə vurmaq, bölgədə gərginliklər yaratmaq kimi cəhdləri heç bir nəticə verməyəcək. Ermənilərin puluna onlara “züy tutanlar” – Zatulin, Tolmaçev və digərlərinin verdiyi açıqlamalar heç bir halda Rusiya dövlətinin mövqeyi ola bilməz. Bu, yuxarıda yazdığımız kimi, bir tərəfdən Rusiyadakı zəngin erməni diasporunun apardığı anti-Azərbaycan təşviqatının növbəti dalğası, digər tərəfdən isə “siyasi təzyiqi” xeyli qalxmış Ermənistan ictimaiyyətinin üstünə “su çiləmək” məqsədini daşıyır.

### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi şərhçi:**

– Rusiya erməni lobbisinin güclü dayaqlara malik olduğu ölkələrdən biridir. Onu da yaxşı başa düşürük ki, Zatulin, Tolmaçev kimi bəzi deputatlar, hüquqşünaslar, ekspertlər birbaşa təsir altında olmasalar belə, Ara Abramyanın rəhbəri olduğu ittifaqla yaxın əlaqələrə malikdirlər. Bu, geniş maliyyə imkanları olan ittifaqdır. Hətta, bir dəfə Rusiya Prezidenti Abramyanın üzünə demişdi ki, həddinizi aşmayın, çünki Rusiyada yaşayan ermənilərin sayı Ermənistandakı ermənilərdən çoxdur.

Azərbaycana təzyiq göstərmək, mövqelərimizi sarsıtmaq üçün bunlar həmişə bəhanə axtarıblar. Əlbəttə ki, bunlar səmərəsiz və məqsədə çatılması mümkün olmayan cəhdlərdir. Zatulinin separatçılara təbriki, yaxud ona bənzər siyasi avantüristlərin çıxışları onların siyasi fırıldaqçı olmalarına dəlalət edir. Erməni vəsaitinin üstündə oturmuş və ondan yararlanan tiplər özlərini nüfuzlu siyasi xadim kimi qələmə verməyə çalışırlar. Dövlət Dumasında komitə sədrinin müavini olan Zatulinin bu cəbhədə mövqeyi xeyli zəifləyib. Ona görə də özünü “reabilitasiya” etməkdən ötrü Ukrayna ilə münaqişə zəminində rəsmiləri də ciddi şəkildə tənqid atəşinə tutur. Yəni, faktiki olaraq, Kremlin üzünə qayıdır.

Anti-Azərbaycan cəbhəsində “vuruşanlar” isə beynəlxalq birliyin diqqətini Qarabağdan könüllü getmiş etnik ermənilərin “problemlərinə” yönəltməyə çalışırlar. Guya, Bakı onları “etnik təmizləmə nəticəsində” bölgədən çıxarıb. Beynəlxalq təşkilatlar, müvafiq strukturlar ermənilərin qayıdışına zəmanət verməlidirlər. Bu, tamamilə faydasız və zərərli fəaliyyətdir. Birincisi, onları Qarabağdan Azərbaycan çıxartmayıb, qapıları da bağlamayıb. Bakı deyir ki, əgər əliniz azərbaycanlıların qanına bulaşmayıbsa, buyurun, müraciət göndərin, vətəndaşlığımızı qəbul edin və sairə. Digər tərəfdən, onlar separatçı, avantürist fəaliyyətləri ilə bizim vətəndaşların ata-baba torpaqlarına – Zəngəzura qayıtmasının qarşısını almağı hədəfləyirlər. Beynəlxalq gündəliyə çıxarılan bu məsələnin həlli departasiyaya məruz qalmış soydaşlarımızın haqqıdır. O torpaqda doğulan insanın orada yaşamaq hüquqi var. Bütün beynəlxalq konvensiyalarda nəzərdə tutulan hüquqi qayda və normalar vətəndaşlarımızın arxasında durmuş güclü sipərdir.

Haylar məhz qabaqdangəlmişlik etmək üçün xarici dəstəkçilərini, o cümlədən, Rusiyadakı ermənipərəst şəbəkəni irəli veriblər. Heç birinin faydası olmayacaq. Azərbaycanın bərpa etdiyi ərazi bütövlüyünü BMT başda olmaqla bütün beynəlxalq təşkilatlar tanıyırlar.

***İmran BƏDİRXANLI***
***XQ***

# “Stanoizm”

**(əvvəli 1-ci səhifədə)**

“Seçkilərin nəticələri Azərbaycan rəhbərliyinin həyata keçirdiyi siyasi kursa və sosial-iqtisadi islahatlara əhali arasında geniş dəstəkdən xəbər verir. Ümid edirik ki, Azərbaycan Respublikası Milli Məclisinin parlament korpusunun yeni tərkibi ilə Rusiya Federasiyası Federal Məclisi arasında ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə uyğun sıx və konstruktiv qarşılıqlı fəaliyyət davam etdiriləcəkdir”. Bu fikirlər Rusiya Xarici İşlər Nazirliyinin sentyabrın 1-də Milli Məclisə keçirilmiş növbədənkənar seçkilərin bəzi Qərb təşkilatları tərəfindən ədalətsiz qiymətləndirilməsinə cavab olaraq yaydığı bəyanatda əksini tapıb.

Şübhəsiz, bəyanat ölkəmizi Rusiya ilə bağlamaq istəyən bəzi Qərb dairələrinə, o cümlədən, xaricdəki ermənipərəstlərə əllərindəki tezis və “şparqalkaların” məzmununu daha da “dolğunlaşdırmaq” üçün yaxşı “fürsət” verir. Çünki niyyətləri çürükdür. Cılızlıqlarını hər imkandaca ortaya qoyurlar. Əlbəttə, belələrinin nə deməsinin həqiqəti ifadə edənlərə heç bir təsiri olmamalıdır. Ona görə də Rusiya tərəfinə həssaslığa görə təşəkkürümüzü bildiririk. Hərçənd, müdafiəyə ehtiyacımızın olmadığını da deməliyik.



Xalqımız özünü və öz dəyərlərini müdafiə etmək iqtidarındadır. Daha yaxşı olar ki, Rusiyanın dövlət orqanları, ümumən rus ictimaiyyətinin təmsilçiləri ölkələri daxilindəki anti-Azərbaycançı qüvvələri, erməni sevdalı zatulinləri zərərssizləşdirsinlər. Nəzərə alsınlar ki, onlar Moskva ilə Bakının arasını vurmaq anını gözləyirlər və mahiyyətcə bu yazının qələmə alınmasına səbəb olan anti-qəhrəmandan heç nə ilə fərqlənmirlər.

Əlqərəz, yəqin təxmin etdiniz ki, mahiyyəti çürük olan anti-qəhrəman P.Stanodur. Əvvəldə də vurğuladıq ki, hazırda Stano çürük mahiyyətlilərin ümumiləşdirilmiş obrazıdır. Məsələn, onun şefi J.Borrel necədirsə, Stano ondan, necə deyərlər, bir çömçə artıqdır. Yaxud artıq olmağa çalışır və göstərir ki, anti-Azərbaycan, ermənipərətslik “qonkasında” iddialı rəqibdir. Yəqin, erməni lobbi və diaspor təşkilatlarının rəhbərləri bu mütrüfü daha yaxşı mükafatlandırmaq barədə düşünərlər. Hər halda, “əməyinə” layiqincə qiymət verilməlidir.

Əlbəttə, Stano çox balaca füqurdur. Azərbaycanla bağlı beynəlxalq aləmdə səslənmiş qərəzli fikir, bəyanat, qətnamə və sair bu sayaq lakmus kağızlarına isə öyrəncəliyik. Biz önümüzə baxırıq, arxamızca dolaşanları saya salmırıq. Eyni zamanda, daha böyük mahiyyəti əsas götürürük. Hesab edirik ki, 1 sentyabr seçkiləri Azərbaycan xalqının öz iradəsini növbəti dəfə göstərməsi idi. O iradədə ölkəmizi güclü, müstəqil görmək əzmi və mübarizliyi var. Əsas məsələ də elə budur. Deməli, Stanonun parlament seçkilərinin, guya, rəqabətsiz, məhdud siyasi mühitdə keçirilməsinə dair bildirdiklərinin heç bir əhəmiyyəti yoxdur.

Əsas məsələ həm də odur ki, xaricdə inkişafımızı, tutduğumuz yolun qətiyyətini gözü götürməyən, Azərbaycanı Suriyanın, İraqın, Liviyanın, Tunisin... gününə qoymaq istəyənlər var. Onlar parlament seçkiləri xüsusunda “aktivləşdilər”. 44 günlük Vətən müharibəsi dönəmində də eyni “ampluada” idilər. Ermənistanı savaşa təhrik edirdilər. Ölkənin qələbəsinə siyasi sərmayə yatırıb Azərbaycan nefti üzərində qanuni dövlət hakimiyyətinin deyil, quldur dəstələrinin nəzarətini həyata keçirmələrinə dair planlar qururdular.

Ermənilərin tam işğal edəcəyi Azərbaycanın dərəbəylik ab-havasını təsəvvürə gətirib, ölkəmizi xəyalən 1990-cı illərin əvvəllərinə qaytarırdılar. Bəlkə insan talelərinə fokuslanmış sentimentallıq səhnələri hazırlamış, vətəndaşımızın hansısa erməni quldurunun tapdağı altında qalacağı ssenarilərini də yazmışdılar. Ola bilər, BBC-ləri, CNN-ləri “timsah göz yaşlarını tökmək” üçün startda dayanmışdılar. Ancaq bir şeyi hesablaya bilməmişdilər ki, Azərbaycan xalqı doğma yurd, el-oba həsrəti ilə alışıb-yanır və bu həsrətə son qoymaq üçün hər şeyə hazırdır. Yekunda belə bir hazırlığın, dəyanətin qarşısında susmağa məcbur olmuşdular.

Xalqımız 1 sentyabr sınağına ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Vətəndəki ilk parlament seçkilərini layiqli şəkildə keçirmək amalı ilə qatılaraq, dövlətimizlə həmrəyliyini növbəti dəfə sübuta yetirdi. Nəticədə yenə xaricdə kimlərinsə kürklərinə birə düşdü. Stano da onların düşərgəsində yer alanlardandır. Axı belələrinin xalq barəsində təsəvvürləri bəsitdir. Onlar xalqı mütəşəkkil, dövlətini sevən, dəyərlərini qoruyan, milli mənlik şüuruna sahib görmək istəmirlər. Niyyətləri qlobal manqurtlar yetişdirməkdir. Özlərindən başqalarını qövm kimi təsəvvürə gətirirlər. Baxın, erməni qövmünün başına çatı salıb hara gəldi sürüyürlər. Sürüyüb dar ağacına gətirmələrinə isə çox az qalıb...

Bəli, görmək istədikləri xarabazarlıqlar, məhv olmuş şəhərlər, dağıdılmış məktəblər, xəstəxanalar, parklar, viran qalmış yaşayış məskənləridir. Ukraynanı saldıqları gün, ölkəyə yaşatdıqları acınacaqlı durum gözlər önündədir. Hər kəs ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vandallıq mənzərələrini də gördü. Stanolar və onların ağaları otuz ilə yaxın müddətdə həmin mənzərələrin saxlanılması üçün dəridən-qabıqdan çıxdılar. Çalışdılar ki, işğal əbədi olsun. İstədilər ki, düşdüyümüz vəziyyətlə, acı taleyimizlə barışaq, torpaq itkisi ilə razılaşaq. Qaşlarını çatıb ağıllı məsləhətlər verdilər. Sülh və sabitlik “zəngulə”ləri vurub balaca uşaqları davakarlıqdan, dəcəllikdən çəkindirirmiş kimi davrandılar. Beynəlxalq hüquqla interpretasiya edərək, həqiqətin başqa sifətini göstərməyə cəhd göstərdilər. Elə zənn etdilər ki, saxtakarlıqlarından xəbərimiz yoxdur. Hər şeyi çox gözəl bilirdik və bu gün də bilir və görürük.

Amma hazırda yaşadığımız Cənubi Qafqaz coğrafiyasında vəziyyət tamamilə dəyişib. 44 günlük müharibədəki Zəfərimiz bölgə ilə bağlı çeşidli oyunlar quranların əlli, yüz il qabağa hesablanmış masonvari düşüncələrini alt-üst edib. Qarşılarında obrazlı desək, Azərbaycan boyda dağ dayanıb. Hərçənd, bu dağı görmək istəmirlər. Özlərini qayadan nə isə qoparmaq istəyən dalğa kimi aparırlar. Aparsınlar, onlara yalnız tozumuzu verə bilərik. Tozumuzu murdar nəfəslərinə çəkib ciyərlərini korlasınlar. Başqa cür mümkün deyil. Hər seçkiqabağı və sonrası başlatdıları anti-Azərbaycan kampaniyası ilə sübut edirlər ki, həqiqətlərin, reallıqların üzünə dik baxa bilməyəcək qədər rəzil və miskindirlər.

Stanolar, borrellər və bu fəsilədən olan digər xəstə canlılar yaxın keçmişdəki sələflərinin müstəqilliyinin ilk on-on beş ilində ölkəmizdə çıxardıqları oyunları təkrarlamağın xəyallarını qururlar. O zaman “rəngli inqilab”lar dəbdə idi. Qərb dairələri inqilab dalğasının Azərbaycanı da vurması üçün dəridən-qabıqdan çıxırdılar. Daxildə bəslədikləri siyasi həşəratları meydanlara çıxarır, hərc-mərclik ab-havası formalaşdırır, gərginlik yaradırdılar.

Lakin zaman keçdikcə həm Azərbaycan dövləti gücləndi, həm də cəmiyyətimiz monolitlik qazandı. Xalq-hakimiyyət vəhdəti oturuşmuş mahiyyət daşımağa başladıqca, mənfi tendensiyalar tarixin arxivinə gömülməyə başladı. Nəticə etibarilə anti-milli ünsürlər də Qərbin sayını çoxaltmağa çalışdığı cinsi azlıqlar kimi buxarlandılar. Həmin ünsürlərin bəzisi yaşam yolunu elə cinsi azlığa çevrilməkdə gördü. Həqiqətən, çox rəzil mənzərədir.

Elə bu saxta azadlıqsevərlərdir Qərbin ortaya qoyduğu zay məhsullar. Gör, demokratiya və insan hüquqları kimi ali dəyərləri haradan-haraya daşıyıblar. Otursub düşünsünlər. Düşünsünlər ki, Stano sayaq yağışdan sonra çıxmış göbələklərə bənzəyənləri üstümüzə salmaq iş deyil. Boş başlarına birdəfəlik salsınlar ki, hələ də əl çəkmədikləri ikili standartlar siyasəti elə ali prinsiplərin özünə qarşı çox böyük həqarətdir. Fikirləşsinlər ki, bugünkü yanaşmaları ilə bəşəriyyətin indiyədək qazandığı mütərəqqiliklərin hamısını sıradan çıxarır, amorf, hissiz, robotlaşmış dünya yaratmağa cəhd göstərirlər. Hər eybəcərliklərinin bumeranq effekti ilə özlərinə qayıdacağını və qayıtdığını da unutmasınlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vətən müharibəsinin fəlsəfəsi

## X MƏQALƏ

**Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



## Milli birlik

"Milli birlik" anlayışı bir tərəfdən aydın məzmuna malikdir, digər tərəfdən isə fəlsəfi qavramaq istəsək, izah edilməli məqamları çoxdur. Ümumi mənada milli birlik cəmiyyətin bütün kəsimlərinin harmonik münasibətlərdə və tam həmrəylikdə olmasını ifadə edir. Onun kökü fərdi səviyyədə milli duyğular və milli psixologiya, birgəyaşamın xüsusiyyətləri ilə bağlıdır. Bu faktorların nisbətinə görə, milli birlik cəmiyyətdən-cəmiyyətə fərqlənə bilər. Bundan başqa, milli birlik daxili və xarici sosio-mədəni, siyasi, iqtisadi, ideoloji və s. faktorlarla şərtlənir. Deməli, burada üç səviyyədə birliyi anlama qarşılıqlı əlaqədə özünü göstərir – fərdi anlam, kollektiv anlam və hüquqi normalara uyğunluq.

Milli birlik, xüsusilə, mürəkkəb situasiyalarda sınaqdan keçir və yeni məna çalarları ala bilir. Yəni, o, dinamik, açıq proses kimi mövcud durumlara millətin kollektiv formada verdiyi reaksiyadır. Burada ictimai institutların əməkdaşlığı xüsusi rol oynayır. İctimai münasibətlər kontekstində baxdıqda isə onun müəyyən mərhələlərini ayırmaq olar. Bura konstitusiya, siyasi sistemin özünü daimi yaratması, siyasi və idarəetmə qərarlarının qəbulu və reallaşdırılması, siyasi sistemə nəzarət daxildir.

Belə alınır ki, milli birlik cəmiyyətin istənilən situasiyada baş verən proseslərə elə kollektiv münasibətdir ki, toplumun bütövlüyü, əməkdaşlığı, harmoniyası və həmrəyliyi təmin edilir. Aydın görünür ki, vurğulanan anlamda milli birlik cəmiyyət, vətən və dövlət faktorun nisbətini əhatə edir. Bu üç əsas faktorların vəhdəti konkret tarixi dövrdə milli birliyin məzmununu təşkil edir. Eyni zamanda, cəmiyyət – vətən – dövlət harmoniyasını yaradan mexanizmin mövcudluğu mütləqdir.

## Vətən müharibəsi və milli birlik

Mürəkkəb situasiyalarda milli birlik cəmiyyət – vətən – dövlət münasibətlərində konkret təzahürünü tapır. Bu zaman birlik "sifarişi" cəmiyyətdən gəlməlidir. Yəni toplum özünün monolit surətdə birləşib, təhdid və təhlükələrə qarşı durmasını bir tələbat olaraq qəbul etməlidir. Vətəni müdafiə məsələsində məhz bu toplumsal daxili canatma mütləq mövcud olmalıdır. Əks halda, ən səmərəli birlik modeli belə real nəticə vermir.

Cəmiyyətin bu daxili "tələbatı və sifarişi"nin reallaşması üçün motivəedici və istiqamətverici ideologiya, mənəvi sistem gərəkdir. Azərbaycanda Vətən müharibəsi başlananda cəmiyyət həm bu tələbatı nümayiş etdirdi, həm də onun reallaşmasının ideoloji və bütövlükdə, mənəvi aspektini, sözün həqiqi mənasında, ortaya qoydu. Bu, Vətən sevgisi, azadlıq, müstəqil dövlətçilik və milli ləyaqət duyğularına asaslanan azərbaycançılıq idi!

Azərbaycan vətəndaşları bu canatmanı öz davranışlarında nümayiş etdirdilər. Onun bir neçə təzahür forması özünü göstərdi. Azərbacyan həm vətəndaş, toplum və xalq olaraq dövlət başçısının Vətəni müdafiə etməyə yönəlmiş səslənişlərini cani-dildən qəbul etdi. Canlı şahidiyik ki, bütün cəmiyyət coşqu içində idi. Bu, cəmiyyətin liderinə, vətəndaşın dövlət başçısına və əsgərin Ali Baş Komandanına tam etibar və etimadının göstəricisi idi. Deməli, Vətən müharibəsi bütün dünyaya sübut etdi ki, II Qarabağ savaşı onun milli, təbii, qanuni, mədəni və mənəvi-əxlaqi kimliyinin yaranmış mürəkkəb vəziyyətdə konkret təsdiqidir.

Vətən müharibəsində, bu, olduqca mühüm məqamdır. Müqayisəyə ehtiyac vardır. Ermənistanda da müəyyən həvəs özünü göstərirdi. Müharibənin ilk 3 günündə Azərbaycan Orudsunda (səbəbini bilmirəm) itki bir qədər çox olmuşdu. Qarşı tərəfin hərbi rəhbərliyi bundan daha da ruhlanmışdı. Hətta, xaricdəki şovinist xislətli ermənilər bir qədər coşmuşdular.

## Saxta erməni vətənpərvərliyi

Lakin bu coşqunun möhkəm mənəvi, ideoloji və əxlaqi təməli yox idi. Çünki, o, nifrətə, qonşunu aşağılamağa, onun tarixini, dövlətçiliyini və mədəniyyətini qabalıqla oğurlamağa söykənirdi. Erməni əsgəri üçün elə bir ciddi və qalıcı motivasiya yoxdur ki, son damla qanına qədər torpaq uğrunda vuruşsun. Çünki qəlbinin dərinlərində bilir ki, bu torpaq onun deyil. Babaları onu kişi kimi savaşıb almamışdılar. Bu torpaqları onlara ingilis, fransız və rus havadarları hədiyyə etmişlər. Buna görə də erməni bir əsgər olaraq haqlı olmadığını təhtəlşüurunda bilirdi. Ona görə də Azərbaycan Ordusunun tezliklə özünə yeni çəki-düzən verməsi və qarşı tərəfə Vətəni qorumağın əsl mənasını anlatmağa başlayan andan erməni əsgərinin qorxaqlığı özünü göstərdi.

Nümunə kimi, savaşın gedişində erməni tərəfin özünün və onun Avropa və Rusiyada olan ağalarının çəkdikləri savaş səhnələrini göstərə bilərik. Onlardan birində aydın görünür ki, 20 nəfərə yaxın "qəhrəman erməni əsgəri" uzaqdan gördükləri 5-6 nəfərlik Azərbaycan komandosundan qorxaraq dovşan kimi qaçırlar. Sonradan Fransada yaşayan bir erməni şovinist bu kimi səhnələri şərh edərkən demişdi: "türklər (yəni azərbaycanlılar) elə gəlirdilər ki, görünüşləri qorxuya salırdı".

## "Məni də Vətənin müdafiəsinə aparın!"

Azərbaycan cəmiyyəti bu gerçəkliyi yaratdı və sona qədər inkişaf etdirdi. Savaşın elə bir anı olmadı ki, Azərbaycan cəmiyyət kimi coşmasın, gənclərimiz hərbi komissarlıqların qarşısında yaxşı mənada "üsyan etməsin". Tələb bir idi: "məni Vətəni qorumağa göndərin!" Şahidi olduğum bir hadisəni dəyərli oxucularla bölüşməkdən qürur duyuram.

Binəqədi Hərbi Komissarlığına oğlumu əsgərliyə yola salmağa getmişdik. Orada iki gənc öz ataları ilə "savaşırdı". Yaşda bir qədər böyük olan oğlan özünün minaatan olduğunu və müharibəyə aparılmasını tələb edirdi. Ata da onunla razılaşırdı. Lakin hərbin öz qanunları var – ordu buna hələlik ehtiyac görmürdü. Və bu gənc küsdü! Təsəvvür edin, azərbaycanlı gənc inciyir ki, niyə onu Vətəni qorumağa aparmırlar. Və bu epizodun fonunda əsgər gedən qardaşı özünü çox rahat hiss edir, çiyninə saldığı bayrağı yellədərək gülümsəyirdi – yəni mən o şərəfə nail oluram! Maraqlı idi ki, yaşlı ata da böyük öğlu ilə həmfikir kimi özünün də yararlı ola biləcəyini deyirdi!

Bu epizodun canlı psixoloji təsirini, yaratdığı duyğusal qüruru heç zaman unutmyacağam! Çünki belə faktlar sözdə deyil, əməldə Vətən savaşının daxili məzmununu, məntiqini və psixologiyasını dərk etməyin ən gözəl faktıdır. Bura dünyanın hər tərəfindən azərbaycanlıların Prezident İlham Əliyevə, hakimiyyət orqanlarımıza, ordu rəhbərliyinə "biz də gəlirik, bizi də aparın!" hayqırtılarını əlavə etmək gərəkdir. Bu hayqırtılar, qanuni və milli tələblər Təbrizdən, Dərəbənddən, Borçalıdan və dünyanın ən uzaq ölkələrində yaşayan azərbaycanlılardan da gəlirdi. Əgər onlardan ordu düzəltsən milyonlar alınardı! Bəlkə də sayı Ermənistan əhalisinin sayını ötüb keçərdi. Bu coşqunun mənbəyi hardandır?

Şübhə yoxdur ki, dərinlikdə azərbaycanlı kimliyinin tarixi formalaşması, dövlətçiliyin qanımıza hopması, ailə tərbiyəsi və əsrlərin sınağından çıxmış birlik fəlsəfəsi dayanır. O da maraqlı və əhəmiyyətlidir ki, bütün bu faktorların fonunda müasir mərhələdə Azərbaycan cəmiyyətinin toparlanmasına şərait yaradan dövlət siyasəti çox əhəmiyyətli görünür. Onun bir neçə əlamətini vurğulaya bilərik.

## Azərbaycan lideri və Azərbaycan əsgəri

Birincisi, qarşı tərəf Azərbaycan insanına, cəmiyyətinə, mədəniyyətinə, kimliyinə və günahsız insanlarına qarşı çox yaramaz, qəbuledilməz, vəhşi hərəkətlər etmişdi. Bu barədə faktlar kifayət qədər deyilmişdir və təkrara ehtiyac yoxdur. Yəni azərbaycanlılar erməni təcavüzkarlarının mərdanə döyüşüb, torpaq alan tərəf kimi deyil, xalqa, insanlara, qocalara, qadınlara və uşaqlara qarşı vəhşilik edən çaqqallar kimi baxırdılar və tam haqlı idilər.

İkincisi, azərbaycançılıq məfkurəsi 1993-cü ildən başlayan təcrübənin göstərdiyi kimi, real olaraq cəmiyyəti birləşdirmişdi, onu mürəkkəb vəziyyətlərdə Vətən və dövlətçilik naminə mübarizəyə psixoloji olaraq hazırlamışdı.

Üçüncüsü, Azərbaycanın liderinə inam tamdır. İlham Əliyev Prezident, Lider və Ali Baş Komandan kimi aparıcılıq qüdrətini bütün incəliyi ilə sübut edirdi. Dövlətin başçısı davranışları, məqsədləri və atdığı gerçək addımları ilə həm Azərbaycan cəmiyyətinə, həm də bütün dünyaya qələbə əzmini qətiyyətlə nümayiş etdirdi. Hərb meydanında verdiyi qərarlar, informasiya savaşında apardığı qətiyyətli və ədalətli mübarizə, xalqına, dövlətə və milli tarixə olan dərin sədaqətini nümayiş etdirməklə Vətən savaşının mahiyyətini formalaşdırdı!

Dördüncüsü, Azərbaycan əsgəri! Savaşın qəhrəmanı, hərb meydanında göstərdiyi Vətən sevgisi, ölümə meydan oxuması, şücaəti, döyüş qabiliyyəti, intizamı və sonsuz qələbə əzmi ilə tarix yazdı! Azərbaycan əsgəri müasir mərhələdə Vətən savaşının nə demək olduğunu bütün dünyaya göstərdi!

## Xalq dəstəyi

Azərbaycan xalqının liderinə və ordusuna verdiyi inanılmaz dəstək ayrıca araşdırılmalıdır! Fəlsəfi araşdırma üçün unikal bir vəziyyət yaranmışdı. Dünyanın çox ölkələrində sosial və milli həmrəyliyin təmin edilməsinin yollarını axtarırlar, lakin Azərbaycan xalqı keçən əsrin 90-cı illərinin saysız-hesabsız psixoloji travmalarına rəğmən böyük birlik nümayiş etdirdi. Vətəndaş şəhid və qazi olmağı özünə namus borcu və şərəf bildi! Vətən torpaqlarının hər qarışının azad edilməsi böyük coşqu yaradırdı. Hər kəs sevincdən ağlamağa hazır idi. Hər kəs özünün Vətəni müdafiə etməyə necə kömək edə biləcəyinin üsullarını axtarırdı. Bütövlükdə xalq Vətəni müdafiə etməyə köklənmişdi. Və qarşısında kimsə dayana bilməzdi!

Burada fəlsəfi kontekstdə xalq dəstəyi ilə milli birliyin məzmunu arasında maraqlı bağlantıları tədqiq etmək aktualdır. Məsələ onunla bağlıdır ki, xalq dəstəyi, eyni zamanda, bir toplum kimi, birlikdən qaynaqlanır. Milli birliklə xalq birliyi bu məqamda bir-biri ilə qovuşur. Onları vahid birlik modelinə gətirən isə azərbaycançılıq fonunda vahid Vətən və vahid müstəqil dövlət anlamlarıdır. Azərbaycançılıq Vətən və müstəqil dövlət anlayışlarının daxili məzmun birliyini təmin etdi!

Azərbaycançılığın dörd ideya vahidinin qısa fəlsəfi təhlili göstərir ki, Vətən müharibəsi zəngin mənəvi, əxlaqi, mədəni, ideya və dövlətçilik kimi məna çalarlarına malikdir. Onun tədqiq edilməsi çox aktualdır. Eyni zamanda, II Qarabağ savaşının Vətən müharibəsi kimi regional və qlobal miqyasa təsiri xüsusi mövzudur. Bunun fonunda II Qarabağ savaşının regional geosiyasi mənzərəni dəyişməsi və regionlararası miqyasda Azərbaycanın dövlət kimi iştirakının fəlsəfi özəlliklərini təhlil etmək də ayrıca aktual məsələdir. Bu məqamların üzərində dayanaq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Qərbin Gürcüstanda seçki "ssenarisi"

**Məlum olduğu kimi, bu il oktyabrın 26-da qonşu Gürcüstanda parlament seçkiləri keçiriləcək. Baş nazir İrakli Kobaxidzenin jurnalistlərlə söhbəti zamanı bildirdikləri isə onu deməyə əsas verir ki, Qərbin bəzi dairələri seçki məsələsində ölkədəki vəziyyəti qarışdırmaq niyyəti güdürlər. Onların əsas istəkləri rəsmi Tbilisinin Avropa İttifaqı ilə yollarını ayırmasıdır. Daha doğrusu, ikincinin birincidən üz döndərməsi. Geniş mənada yanaşsaq, səbəb aydındır – Gürcüstanın müstəqil siyasət kursunu gözləri götürmür.**



Bəli, Gürcüstanın eks-prezident Mixeil Saakaşvilinin şəxsində ortada olmuş sadiq qərbpərəstlik xətti artıq tarixdir. Ancaq bu da bir faktdır ki, Saakaşvili həmin xətti ölkənin inkişafına yönəldən konkret addımlar atdı. Digər tərəfdən, o zamankı Gürcüstana indiki Ermənistan kimi yanaşılmırdı. Gürcüstan, bir növ, sınaq nümunəsi idi. Qərb Gürcüstanın möhkəmlənməsi üçün resurslar sərf etdi, o cümlədən, maliyyə resurslarından keçdi. Sonra isə etdiklərinin qarşılığını istədi. Yəni ki, Gürcüstanı Qafqazın aktiv anti-Rusiya qalasına çevirməyə qol çırmadı. Nəticə eibarilə ölkə Rusiya ilə qeyri-bərabər savaşa sürükləndi. 2008-ci ilin Rusiya–Gürcüstan müharibəsini yada salaq. Eləcə də ikincinin məğlubiyyətini və rus qoşunlarının paytaxt Tbilisinin bir neçə kilometrliyinədək irəliləmələrini...

Əlbəttə, hansı səmtdən yanaşsaq, Rusiyanın Cənubi Osetiya və Abxaziya xüsusunda həyata keçirdikləri yolverilməzdir. Azərbaycan bütün beynəlxalq platformalarda Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bəyan edir. Gürcüstan da zamanında ölkəmizin üzləşdiyi işğala qarşı oxşar mövqe sərgiləməklə etirazını bildirmişdi.

Bəs 2008-ci ilin müharibəsi zamanı Tbilisini Moskvaya qarşı açıq demarşa təhrik edən Qərb nə etmişdi? Onun arxasında dayanmışdımı? Əlbəttə ki, yox! Şübhəsiz, Azərbaycan kimi, Gürcüstan da nə zamansa haqqını əldə edəcək, bunun üçün tarixi şərait yetişəcək. Ancaq haqqa çatmaq həm səbr və təmkinli olmaqdan, həm düzgün siyasət aparmaqdan, həm də keçilmiş yolu səmərəli şəkildə dəyərləndirməkdən, səhvlərdən nəticə çıxarmaqdan keçir. Hesab edirik ki, bu mənada Gürcüstanın hazırkı iqtidarının həyata keçirdiyi kurs, kifayət qədər, sabitdir. Ölkə iqtidarı Qərbin təxribatlarına uymur.

Bəli, hazırda Qərbi yandırıb-yaxan Gürcüstanın Ermənistan kimi, Qafqazın anti-Rusiya qalası olmaq istəməməsidir. Saakaşvili ilə qoyulmuş əsasın sıradan çıxmasından narahat qüvvələr var. Tbilisini Kremlə qarşı cəbhə kimi təsəvvürə gətirən həmin qüvvələr vaxtilə ölkə üçün etdiklərinin, yatırdıqları sərmayənin, belə demək mümkünsə, özünü doğrultmamasından, "qızılgül inqilabı"nın nəticələrinin aradan qalxmasından çox narahatdırlar. O qədər naharatdırlar ki, Gürcüstan vətəndaşlarının Avropaya vizasız gediş-gəlişinin ləğvinə dair cılız çağırış səsləndirir, sanksiya tətbiqi barədə sərsəmləyirlər. Bir sözlə, tipik Qərb düşüncə tərzinin imperialist elementlərini işə salırlar. Ola bilər, özlərinin gələcək planlarının icrası baxımından Ermənistana üstünlük verdiklərindən belə davranırlar. Onlardan hər şey çıxar...

Sanksiyadan söz düşmüşkən, İ.Kobaxidze də bu barədə söz açıb və bildirib ki, Gürcüstana qarşı mümkün sanksiyaları qeyri-ciddi hesab edir. O, tam haqlıdır. Nəinki barəsində söz açılan tədbir, ümumən kollektiv Qərbin Gürcüstana münasibəti birincinin qeyri-ciddi obrazının növbəti nümayişidir. Özü də son dərəcə çirkin formada. Əslində, Baş nazirin söylədikləri də həmin çirkin mənzərənin etüdləridir. Onun sözlərinə görə, Gürcüstan müxalifəti oktyabrın 26-da keçiriləcək parlament seçkilərindən sonra ölkədə iğtişaşlar yaratmağa çalışacaq.

İ.Kobaxidzenin dilə gətirdiyi gedişatı proqnozlaşdırmaq mümkündür. Ötən bir ildə Qərb–Gürcüstan qarşıdurması məsələsindəki müxtəlif elementlərin gündəmə gəlməsi bunu söyləməyə əsas verir. Qərbin xüsusi xidmət orqanlarının Gürcüstanda həyata keçirmək istədikləri, xarici agentlər haqqında qanunvericilik barədə yaşanan kütləvi etirazlar hər kəsə yaxşı məlumdur. O da məlumdur ki, bu tədbirlərin heç biri gözlənilən effekti vermədi. Qarşıdakı parlament seçkiləri isə "məqsədə" çatmaq naminə yaxşı "vasitədir".

Beləliklə, İ.Kobaxidze bildirir ki, ölkədəki radikal müxalifətin seçkilərdə qalib gəlməyə ümidi yoxdur və məhz buna görə həmin qütb seçkidən sonraya fokuslanır. Fokuslanır ki, vəziyyəti gərginləşdirsin. Gürcü Baş nazir mövcud istiqamətdə hazırlıqların getdiyini də bildirir. Məsələn: "Onlar "Gürcü arzusu" qalib gəlsə" sözlərini öz lüğətlərindən çıxarıb və daim "Gürcü arzusu" seçkiləri saxtalaşdırsa" deyirlər".

Göründüyü kimi, ortada tipik Qərb yanaşmasından irəli gələn "ritorika" var. Yəni, hələ proses reallaşmayıb, ancaq əks düşərgədəkilər hakimiyyətin saxtakarlığa gedəcəyi klişesini tirajlayırlar. Necə də oxşar mənzərədir... O zaman Kobaxidze çox doğru olaraq bildirir ki, seçkilərin nəticələrini tanımamağa köklənmiş müxalif kəsim dövlət institutlarına hücum etməyə və ölkədə iğtişaşlar yaratmağa çalışacaq. Yeri gəlmişkən, qeyd edək ki, həmin kəsimin Azərbaycandakı tör-töküntüləri zamanında ölkəmizlə bağlı eyni addımları atmağa həvəslənmişdi.

İndi imkanları olsa, 1 sentyabr Milli Məclisə seçkilərlə bağlı da aranı qarışdırmaq istəyərdilər. Ancaq heç nə edə bilmədilər. Çünki, əvvəla, ölkəmizdə xalq–hakimiyyət vəhdəti güclüdür, ikincisi, dövlətimiz anti-milli təmayüllərə qarşı, kifayət qədər, möhkəmdir. Arzu edək ki, qonşu Gürcüstan da belə bir mövqeyə sahiblənməyin bəhrəsini görsün, siyasi kataklizmlərdən uzaq olsun. Nəzərə alaq ki, istənilən siyasi təbəddülatlar ölkənin inkişafına zərbədir. İnkişaf üçün başlıca faktor isə sabitlikdir. Qərbin müxtəlif marginal qruplar vasitəsilə sıradan çıxarmağa çalışdığı da elə sabitlik və əminamanlıq mühitidir.

Əlqərəz, İ.Kobaxidze onu da vurğulayıb ki, seçkilərdən əvvəl və ya seçkilərdən sonra vəziyyətin sabitliyini pozmaq cəhdlərinin qarşısı qanun çərçivəsində alınacaq. O, təmsil olunduğu hakim komandanın destruktiv meyillərin aradan qaldırılması üçün bütün lazımi resurslara malik olduğunu da bildirib, əminlik yaradıb: "Heç bir təxribat uğur qazanmayacaq və hər bir cinayət əməli ağır cəza ilə qarşılanacaq".

Sonda qeyd edək ki, Gürcüstanda bu il oktyabrın 26-da keçiriləcək parlament seçkiləri ilə bağlı kampaniya sakit şəraitdə gedir. İ.Kobaxidze də bu məqamı açıqlayıb və əlavə edib ki, mövcud istiqamətdə bir dənə də olsun ciddi pozuntu aşkarlanmayıb. Biz isə qonşu xalqın növbəti sınaqdan uğurla çıxacağına, Qərbin siyasi missionerlərinin ölkəni qarışdırmaq planlarının iflasa uğrayacağına inamımızı ifadə edirik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Naxçıvan – hərtərəfli tərəqqi poliqonu

**Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmiş, orta əsrlərdə Şərqin böyük elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış, dövlət sivilizasiyasına dəyərli töhfələr bəxş etmişdir. Azərbaycan Atabəyləri–Eldəgəzlər dövlətinin paytaxtı olan, əsası Əcəmi Naxçıvani tərəfindən qoyulan memarlıq məktəbi ilə bütün**

***Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.***

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

**Təbiət və tarix abidələri ilə məşhur olan Naxçıvan torpağı bu gün də bənzərsiz simasını, gözəlliyini qoruyub saxlayır və dünyanın qədim diyarı kimi bura gələn insanları, qonaqları heyran qoyur.**





Uzun illər gərgin siyasi mübarizələr meydanına çevrilən qədim Naxçıvanın muxtariyyətinin əsasları 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Azərbaycanın Şərqə açılan qapısı olmaqla zəngin dövlətçilik tarixinə malik olan Naxçıvan Muxtar Respublikası 9 fevral 1924-cü ildə yaradılmış və milli, qədim ənənələri qoruyub saxlamışdır.

Qədim mədəniyyəti, bərəkətli sərvəti, dahi şəxsiyyətləri ilə Azərbaycan Respublikasında xüsusi payı və yeri olan Naxçıvan Muxtar Respublikası bu gün istər iqtisadi-siyasi, istərsə də elm və mədəniyyət sahəsində tərəqqinin ən yüksək pilləsində dayanır. Belə ki, 1883-cü ildən fəaliyyət göstərən Naxçıvan teatrı Azərbaycan teatr mədəniyyətinə böyük töhfələr bəxş etmişdir. Şərqdə ilk akademiyanı və rəsədxananı yaratmış Nəsirəddin Tusi, qüdrətli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadə, Azərbaycan realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərli, ilk tarixi romanların müəllifi Məmməd Səid Ordubadi, böyük maarifçi və ədib Məhəmməd Tağı Sidqi, romantizm ədəbi cərəyanının görkəmli nümayəndəsi Hüseyn Cavid, dünyaca məşhur kimyaçı alim, akademik Yusif Məmmədəliyev, görkəmli publisist, dilçi-alim Məhəmməd ağa Şahtaxtlı, Xalq şairi Məmməd Araz, Xalq yazıçısı Hüseyn İbrahimov... bu diyarın yetirmələridir.

Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas elm, mədəniyyət, təhsil və ictimai fikir mərkəzlərindən biri sayılır. Azərbaycan Milli Elmlər Akademiyasının prezidentləri, görkəmli kimyaçı alim Yusif Məmmədəliyev, yarımkeçiricilər fizikası məktəbinin yaradıcısı Həsən Abdullayev, məşhur riyaziyyatçı Fərəməz Maqsudov, informatika-radiasiya üzrə qəbul olunmuş elm xadimi, professor Mahmud Kərimov, akademik Məmməd Cəfər Cəfərov, professor Abbas Zamanov, akademik Teymur Kərimli və onlarca başqa görkəmli elm xadimləri Azərbaycan elminə, təhsi-linə, ictimai fikrinin inkişafına yeni səhifələr yazmış, öz elmi potensialları və bacarıqları ilə Naxçıvanı tək Azərbaycanda deyil, bütün dunyada tanıtmışlar.

Böyük tarixi şəxsiyyətlər, alimlər, yazıçı və şairlər vətəni olan Naxçıvan Azərbaycanın elmi və mədəni inkişafına güclü təkan vermiş, görkəmli liderləri və elm adamları ilə məşhurlaşmışdır. Bunlardan biri də yüksək istedad və bacarığı ilə Azərbaycan poeziyasına dəyərli sənət inciləri bəxş edən məşhur şairimiz Məmməd Arazdır. Şairin Naxçıvanın tarixindən, əsrarəngiz təbiətindən, təbii sərvətlərindən bəhs edən “Naxçıvanım mənim” adlı şeiri bizim üçün ana laylası qədər şirin, doğma və əzizdir:

**Sinəmdə o yerin dağ havasıdır.**
**Qaynar bulaqları qaynar qanımda.**
**Mənim ürəyimin bir parçasıdır**
**Doğma Şahbuzum da, Naxçıvanım da.**

Tarixə nəzər salsaq görərik ki, böyük tarixi hadisələrin, keşməkeşli günlərin şahidi olan qədim diyarımız, həmişə olduğu kimi, son illərdə də bütün çətinliklərə sinə gərərək düşmənlərin caynağından, hərisli yağı gözlərindən, məkrli əllərdən özünü qoruya bildi. Belə bir ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik, şücaət və yenilməzlik nümayiş etdirərək, Azərbaycanın bu qədim diyarını düşmənlərdən – mənfur erməni təcavüzkarlarından öz canları bahasına qorudu və qoruyur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il iyul ayının 22-də canından çox sevdiyi Naxçıvanına dönməsi, doğma el-obasına qayıtması çətin günlərini yaşayan Naxçıvanı dirçəltdi, burada yaşayan insanlarda sabaha, gələcəyə böyük inam hissi yaratdı. Bu illər Naxçıvan Azərbaycanda gedən siyasi proseslərə, o cümlədən, milli azadlıq mübarizəsinə böyük təkan verdi. Müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin gücləndirilməsinə və tərəqqisinə, ərazilərimizin azad olunmasına Naxçıvandan başlanan böyük siyasi dalğanın təkanı daha təsirli oldu. Bunu ulu öndər Heydər Əliyevin dərin, məzmunlu nitqindən də görmək mümkündür: “Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır”.

Bu gün Naxçıvan Muxtar Respublikası özünün ən dəyərli, yaddaqalan günlərini yaşayır. Muxtar diyarımız Ümummilli lideri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən əsasını qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsi ilə daha da çiçəklənir, möhkəmlənir və inkişaf, tərəqqi yolunda inamlı addımlar atır. Ulu öndərin yaradıb, xalqımıza ərmağan etdiyi siyasi, milli ideologiyanı, qarşıya qoyduğu müqəddəs vəzifələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Ötən illərlə müqayisə etsək, görərik ki, bu gün də Azərbaycanın mədəni və elmi həyatının tərəqqisinə Naxçıvan Muxtar Respublikası öz dəyərli töhfələrini vermiş, bu sahədə inkişaf yüksək səviyyəyə çatmış və böyük uğurlar qazanılmışdır. Tarixi və mədəni irsin qorunması və təbliği, mədəni-elmi potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması dönməz xarakter hal almışdır. Azərbaycan mədəniyyətinə və elminə əsrarəngiz töhfələr bəxş etmiş naxçıvanlı alimlərin, şair və yazıçıların, görkəmli mədəniyyət xadimlərinin adları əbədiləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvanda səfərdə olarkən muxtar respublikanın bütün sahələrində tərəqqini və inkişafı yüksək qiymətləndirərək demişdir: “...Naxçıvanın Türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardr. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri, bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı...”.

Onu da qeyd etmək lazımdır ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il sentyabrın 19–20-si tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Naxçıvanın vətənpərvər, igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar. Onların şücaəti, qəhrəmanlığı kiçikdən böyüyə kimi hər bir kəsin dilində dastana dönmüş, məzarları isə bütün azərbaycanlılar, o cümlədən, naxçıvanlılar üçün and yerinə, ziyarətgaha çevrilmişdir.

Qarabağda qazandığımız Şanlı Zəfərdən sonra 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri ilə bağlı təəssüratlarını bölüşən dövlətimizin başçısı İlham Əliyev demişdir: “Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, buradakı inkişafı görəndə çox sevinirəm. Bu, mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir... Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”.

Prezident İlham Əliyev prezidentliyi müddətində 15 dəfə muxtar respublikada səfərdə olub. Bu səfərlərdə dövlət başçısı qədim Naxçıvanımızın sosial-iqtisadi və mədəni inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, dövlət proqramları imzalayıb. Ölkə başçısı tərəfindən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” və 2023-cü il 30 dekabr tarixli “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamı qədim diyarımızın zəngin dövlətçilik tarixində, ölkəmizin inkişafında mühüm yer tutduğunun bariz göstəricisidir.

İnanırıq ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası və onun ayrılmaz parçası – Naxçıvan diyarı daim öz müstəqilliyini, azadlığını, bütövlüyünü qoruyub saxlayacaq, bütün siyasi-iqtisadi və mədəni proseslərin önündə gedənlərdən olacaq. Elm, təhsil, idman, iqtisadi, siyasi, mədəni, demək olar ki, bütün sahələrdə üçrəngli bayrağımız dünyanın hər yerində vüqarla, qürurla dalğalanacaq, bizim, dostlarımızın və gələcək nəsillərin birlik, azadlıq, bütövlük simvoluna çevriləcəkdir.

***Samirə HƏSƏNOVA,***
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru***

## Qan yaddaşımız

# Qədim türk yurdunda daşnak vəhşilikləri

**Erməni millətçilərinin Azərbaycan xalqına qarşı təcavüzünün və soyqırımı siyasətinin iki yüz ildən çox tarixi var. Bu müddətdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Məqsəd tarixii Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək və həmin ərazilərdə “böyük Ermənistan” dövləti yaratmaq idi.**



Ermənilər tərəfindən azərbaycanlılara qarşı milli qırğın 1905-ci il fevral ayının ilk ongünlüyündən Bakıdan başlamış və tezliklə Azərbaycanın digər bölgələrinə, o cümlədən Naxçıvana da yayılmışdı. 1905-ci il hadisələrinin şahidi olan M.S.Ordubadi “Qanlı illər” adlı əsərində münaqişənin ortaya çıxmasının səbəblərini erməni daşnaksütyun komitəsinin müstəbid idarə üsulunu təşkil etməsi, məhəlli hökumət məmurlarının etinasızlığı, çar üsul-idarəsinin ikili oyunu, müsəlman əhalinin elmsizliyi, baş verən siyasi hadisələrdən bixəbər olması və ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmaları ilə izah edir.

Ermənilərin türkə olan nifrət psixologiyası 1905-1907-ci illərlə məhdudlaşmamış, 1918-ci ildə də davam etmişdir. Həmin ilin mart soyqırımı olaraq tarixə keçən 1918-ci il hadisələri paytaxt Bakı ilə bərabər, Azərbaycanın bütün bölgələrində – Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda, o cümlədən Naxçıvanda ağır nəticələri ilə yadda qalmışdır. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi müəyyən səbəblərdən və çətinliklərdən Naxçıvana lazımi dəstək verə bilməmiş, nəticədə ermənilər tərəfindən törədilən cinayətlər Naxçıvandan da yan keçməmişdir.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür, yaşayış məntəqələrini yandırır və ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində Andranik Ozanyan, Dro, Njde, Doluxanov, Yapon və digər cəlladların başçılıq etdikləri dəstələr böyük rol oynamışlar.

Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərmiş Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Onun “Qanlı günlərimiz” əsərindən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 74 min azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür. Naxçıvanda o zaman ilk soyqırımı Culfa rayonunun Yaycı kəndində törədilmişdir. Erməni qaniçənlər Araz çayı sahilindəki 4 minə yaxın əhalisi olan Yaycı kəndini yerlə yeksan etmiş, kənd sakinlərinin 2500-ə qədərini qətlə yetirmiş və Araz çayına tökmüşdü. Cəsədlərin sayı o qədər çox olmuşdu ki, böyük bir qəbiristanlıq yaranmışdı. O vaxtdan bu, Yaycı qəbiristanlığı olaraq tarixə düşmüşdür.

Culfa rayonunun Yaycı kəndindən olan yazıçı-jurnalist Fərəc Fərəcov 2002-ci ildə nəşr etdirdiyi “Yaycı soyqırımı” kitabında kəndin yaşlı sakinlərindən aldığı müsahibələrdə törədilən erməni vəhşiliklərini bütün çılpaqlığı ilə ortaya qoyur. Həmin kitabdan bəzi acı xatirələri oxucularımızın da diqqətinə çatdırırıq:

Yaycı kənd sakini Zəhra İsmayılovanın (dünyasını dəyişib) dediklərindən: – O Andranik məlun bizim ailəyə də sağalmaz yaralar vurmuşdur. Anamgil altı bacı idilər: Fatma, Leyla, Züleyxa, Səmənnaz, Zəhra və anam Həlimə. Onlardan təkcə salamat qalanı anam olmuşdur. Qalan beş bacısını, yəni mənim xalalarımın beşini də ermənilər uşaqları, körpələri ilə birlikdə qəddarlıqla öldürmüşlər. Züleyxa xalamın təkcə bir övladı təsadüfən sağ qalmışdı. Adı Abbas idi. Erməni qulduru onu qamçı ilə vurub öldürülmüş anasının yanına sərmişdir. Hər ikisini ölmüş bilmişlər. Lakin xoşbəxtlikdən uşaq sağ qalmışdır.

***Haşiyə:*** Həmin uşaq yaşamış və şərəfli bir ömür yolu keçmişdir. O, mayor rütbəsinə yüksəlmiş, hərbi təyyarəçi olmuşdur. 1941–1945-ci illərin qanlı müharibəsində Abbas Muradov əsl döyüş qəhrəmanlığı göstərmişdir. Sinəsini orden və medallar bəzəyən Abbas Muradov təqaüddə olduğu illəri doğma Yaycıda yaşamış, burada vəfat etmişdir.

“Min evli” adlandırılan bu kənddə soyqırımı zamanı elə bir ailə olmamışdır ki, faciənin qurbanına çevrilməsin. Hər ailənin bir, iki və daha çox üzvü erməni qaniçənlərindən canlarını qurtara bilməmişlər. Onlarla ailə bütün üzvləri ilə birlikdə evlərində qətlə yetirilmişdir. Yasəmən adlı qadının qolunu kəsmişdilər. O, son illərdə dünyasını dəyişmişdir. Oğlu Əbülfəz Süleymanovla (o da dünyasını dəyişib) anası və onun başına gələn müsibətlər barədə ətraflı söhbətimiz olmuşdur. Ə.Süleymanovun söylədiklərindən:

– Anamın sağ qolunu ermənilər güllə ilə vurmuşdular. Başqa bir erməni isə ona yaxınlaşıb güllə dəyən qolunu qamçı ilə vurub yerə salır. Kini, qəzəbi soyumayan erməni qolsuz qalmış anamın kürəyinə də qamçı çəkir. Qan içində olan anam yerə yıxılır. Onu ölmüş bilirlər. Bir müddət Araz qırağında ölülərin içində qaldıqdan sonra sağ olduğunu görüb İrana keçirirlər. Mən gözümü açandan anamı həmişə xəstə və qəmgin görərdim. Bunun səbəbini ondan soruşdum. Anam mənə hər şeyi ətraflı danışdı. Anamgil 8 bacı idilər. Onların altısını ermənilər eyni vaxtda qılıncdan keçirmişdilər. Sona adlı bacısını isə qohumlarımızdan biri İran tərəfə apara bilmişdir. Sonralar o, Naxçıvanda ailə həyatı qurub yaşamışdır.

Həmin vaxt Yaycıda bu cür ürəkağrıdıcı hadisələr az olmamışdır. 1918-ci ilin iyun ayında baş vermiş bu qanlı hadisə erməni faşistləri tərəfindən törədilən soyqırımı idi. Kəndin əhalisi yarıbayarı azalmışdı. Ən çox itkilər qadınlar arasında olmuşdu. İtkin düşənlər də vardı. Danışırlar ki, kənddə 7 il xeyir mərasimləri, şənliklər olmamışdır.

Bundan sonra Nehrəm ətrafında rüsvaycasına məğlub edilmiş Andranikin dəstələri geri qaçmağa məcbur olmuşdu. Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan kəndləri dağıda-dağıda bu məsafədə 2 min azərbaycanlını öldürmüşdür. Ordubad ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərksilah olunmuş, xeyli hissəsi qətlə yetirilmişdir. Həmçinin Sirab, Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilmişdir.

Tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kəndin də erməni komitəçilərinin hücumuna məruz qaldığı və əhalisinin də Araz çayına atılması ilə bağlı məsələlər göstərilir. Müsəlmanlar tərəfindən ələ keçirilən ermənilər Naxçıvanda və onun bütün kəndlərində türklərin qətlə yetiriləcəkləri və hamısının Araz çayına atılacaqlarına dair əmr aldıqlarını etiraf etmişdilər. Erməni dəstələrinə yazılı olaraq göndərilən əmrdə deyilir: “Şərur əhalisini Araz çayına atmaq üçüncü alay komandanlığının əsas vəzifəsidir”.

Digər bir fakt: Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Onlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idi. 15 mindən artıq erməni quldurlarının silahsız, müdafiəsiz insanların üzərinə hücumu nəticəsində bir gün ərzində 10 mindən artıq günahsız insan qətlə yetirildi. Bu vaxt Duzdağ tərəfdən açılan top səslərini Andranik eşitməsəydi, orada bir nəfər də sağ qalmayacaqdı. Məhz Kazım Qarabəkir paşanın komandanlığı altında döyüşən Qafqaz–Türk ordusu bir günün içərisində Naxçıvana yürüş edib daşnakları geri oturdur və Naxçıvanın yerli özünüidarə hökumətinin qurulmasına yardım edir.

Ümummilli lideri Heydər Əliyev Türk ordusunun bu tarixi xikaskarlığı barədə belə demişdir: “Türk ordusunun, xüsusən də Kazım Qarabəkir paşanın adı Naxçıvanda çox böyük hörmət-ehtiramla yad edilir. Mənim əziz müəllimim Lətif Hüseynov da mənə demişdi: Heydər, əzizim, çalış düşmənlərin qarşısını al, Naxçıvana təcavüzə imkan vermə. Əgər 1918-ci ildə türk ordusu, general Kazım Qarabəkir paşa Naxçıvana gəlməsəydi, hamımızı qıracaqdılar. Bu mənim gözümün qabağında olan hadisədir”.

Bu gün hər birimiz qürur hissi keçiririk ki, 2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsində ordumuz 44 gün ərzində düşmənə böyük zərbə vuraraq ərazı bütövlüyümüzü təmin etdi. Azərbaycan bu Tarixi Qələbə ilə həm də 200 illik erməni mifini darmadağın edərək ona yerini göstərdi. Məhz bu Qələbə erməni millətçiliyinə, xalqımıza qarşı zaman-zaman aparılmış soyqırımı və deportasiya siyasətini birdəfəlik iflasa uğratdı.

**Səbuhi HƏSƏNOV**
**XQ**

# İtaliya Avropada Azərbaycanın aparıcı iqtisadi tərəfdaşıdır

## *Keçən il bu ölkə ilə ticarətin həcmi 15,7 milyard dollara çatıb*



**Azərbaycan–İtaliya əlaqələri çox möhkəm təməl üzərində qurulub. İki ölkənin münasibətləri ötən dövr ərzində uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Şübhəsiz ki, bu dövlətlər arasında ali və yüksək səviyyəli səfərlər də əməkdaşlığın möhkəmlənməsində önəmli rol oynayıb.**

İki ölkənin enerji sahəsində əməkdaşlığında da ötən illər ərzində mühüm uğurlar əldə edilib. Belə ki, 1995-ci il noyabrın 10-da Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1996-cı ilin iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Şah Dəniz" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1998-ci ilin iyunun 2-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanıb.

İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşına çevrilib. Cənub Qaz Dəhlizi (CQD) və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri (TAP) ikitərəfli enerji əməkdaşlığının və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib amildir. CQD Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçərək Azərbaycan qazını İtaliyanın Brindisi sənaye limanındakı son təyinat nöqtəsinə çatdırır. CQD-nin son hissəsi – TAP Azərbaycandan ilk dəfə olaraq təbii qazı İtaliyaya daşıyır.

Ötən illər arasında Azərbaycanın əsas ticarət tərəfdaşları arasında İtaliya xüsusi yer tutub. Belə ki, keçən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 15 milyard 685 milyon ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, il ərzində Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul ixrac olunub. Yeri gəlmişkən, 2023-cü ildə Azərbaycandan İtaliyaya 40 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları göndərilib. İl ərzində İtaliyadan isə ölkəmizə 477 milyon 903 min dollar dəyərində məhsul idxal edilib.

Ölkələrimiz arasında qarşılıqlı ticarət əməliyyatları 2024-cü ilin əvvəlindən də davam etdirilib. Belə ki, cari ilin yanvar–may aylarında Azərbaycanla İtaliya arasında ticarət əməliyyatlarının həcmi 4 milyard 409 milyon 619 min ABŞ dolları təşkil edib ki, bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 23,91 faizi həcmində olub. Hesabat dövründə Azərbaycan İtaliyaya 4 milyard 228 milyon 930 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu isə Azərbaycanın ümumi məhsul ixracının 37,97 faizi deməkdir. Eyni zamanda, yanvar–may aylarında ölkəmiz İtaliyadan 180 milyon 689 min ABŞ dolları həcmində müxtəlif məhsullar idxal edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,3 faiz çoxdur.

İtaliyanın da Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Bu ölkənin Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizini Azərbaycan ilə ticarət təşkil edir. 2023-cü ildə İtaliya Respublikasının Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 30,65 faiz (1-ci yer), o cümlədən idxalda 2,76 faiz (7-ci yer), ixracda isə 44,86 faiz (1-ci yer) təşkil edib.

2024-cü ilin yanvar–iyul aylarında isə ticarət dövriyyəsinin həcmi 6,2 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 0,3 milyard ABŞ dolları, ixracın həcmi 5,9 milyard ABŞ dolları təşkil edib.

İtaliya işgüzar dairələri, həmçinin Azərbaycanda böyük məbləğdə sərmayələr qoyur, həyata keçirilən bir sıra beynəlxalq əhəmiyyətli layihələrdə iştirak edirlər. Təkcə onu demək kifayətdir ki, Azərbaycanda 100-dən çox İtaliya investisiyalı kommersiya qurumu sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət və digər sahələrdə fəaliyyət göstərir.

İtaliya, eyni zamanda, Azərbaycanın Avropa məkanında ən böyük enerji tərəfdaşıdır. Uzun illərdir ki, ölkəmizin neft ixrac etdiyi ölkələrin siyahısında birincilik məhz İtaliyaya məxsusdur. Bu tendensiya cari ilin ilk yarısında da davam edib. Belə ki, hesabat dövründə Azərbaycan 20 ölkəyə, ümumilikdə, 7 milyard dollar dəyərində 11,1 milyon ton neft ixrac edib ki, bu siyahıda İtaliya yenə birinci olub. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar–iyun aylarında bu ölkəyə 2,7 milyard dollar dəyərində 4,3 milyon ton "qara qızıl" göndərilib.

Hazırda İtaliya Avropa məkanında Azərbaycan qazını idxal edən lider ölkədir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan bu ölkənin qazla təchizatında ilk üçlükdə qərarlaşıb ki, bu da enerji sahəsində uğurlu əməkdaşlığı təsdiq edən mühüm məqam kimi diqqət çəkir. Müqayisə üçün qeyd edək ki, indiyə kimi Avropaya tədarük edilmiş 37,9 milyard kubmetr qazın 30 milyard kubmetrdən çoxu məhz İtaliyanın payına düşür. Cari ilin yanvar–may aylarında Azərbaycandan bu ölkəyə 4 milyard 129,5 milyon kubmetr "mavi yanacaq" ixrac olunub. Ümumilikdə isə, bu il Azərbaycandan İtaliyaya 9,6 milyard kubmetr qaz tədarükü proqnozlaşdırılır.

İtaliya şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yenidənqurma layihələrinə cəlb olunması möhkəm iqtisadi əlaqələrin göstəricisidir və bu tərəfdaşlığın daha da genişləndirilməsi üçün potensial imkanlar mövcuddur. Xüsusilə, kənd təsərrüfatı, aqrar maşınqayırma, irriqasiya sahələrində İtaliyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və bu istiqamətdə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır.

# Qarabağın su qaynaqları bol enerji mənbəyidir

## *Azad torpaqlarda 32 SES işə salınıb, 39-u isə qurulacaq*



**İşğaldan azad olunmuş ərazilərin "yaşıl" enerji zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq "Azərenerji" ASC Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər ümumi gücü 270 meqavat təşkil edən 32 su elektrik stansiyası tikib və yenidən qurub. Bu barədə "Azərenerji" ASC-dən məlumat verilib.**

Məlumatda bildirilib: "Bu il sentyabrın 2-də Qarabağ işğaldan azad olunandan sonra bölgədə istifadəyə verilən ən böyük su elektrik stansiyasının açılışı olub. 40 meqavat gücündə olan "Yuxarı Vəng" SES Kəlbəcər silsiləsinə aiddir və "yaşıl" enerji zonasına daxildir. Stansiya tikilərkən flora və faunanın, eyni zamanda, digər normativlərin qorunmasına tam riayət olunub. Obyektdə Avropa istehsalı olan ekoturbinlər quraşdırılıb. Bu stansiya təkcə Kəlbəcərə deyil, ətraf rayonlara da elektrik enerjisi ötürmək gücündədir".

Xatırladaq ki, "Yuxarı Vəng" SES Kəlbəcəri 5 il elektrik enerjisi ilə təmin etmək imkanındadır. Stansiyanın istifadəyə verilməsi "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 üçün xüsusi əhəmiyyətə malikdir. Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurun su elektrik enerjisi potensialı 500 meqavata qədər qiymətləndirilir. Bu da gələcəkdə ərazidə daha 39 su elektrik stansiyasının tikintisi ehtimalını artırır.

# Qazaxıstanla 6 aylıq mübadilə

**2024-cü ilin yanvar–iyun aylarında Qazaxıstanla Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 280,6 milyon dollar təşkil edib. Bu barədə Qazaxıstanın Milli Statistika Bürosu məlumat verib.**



Bildirilib ki, hesabat dövründə Azərbaycandan Qazaxıstana ixrac 24,5 milyon dollar, bu ölkədən Azərbaycana ixrac isə 256,1 milyon dollar təşkil edib. Statistikaya əsasən, ölkəmizin Qazaxıstanın ümumi ticarət dövriyyəsində payı 0,4 faiz, ümumi ixracda payı isə 0,7 faiz təşkil edib.

# Aqrar subsidiya kəndli əməyini stimullaşdırır

**Aqrar Subsidiya Şurası gələn il üçün subsidiya əmsallarını açıqlayıb. Qurum Azərbaycan Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq, 2025-ci ildə bitkilər və regionlar üzrə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının, eləcə də əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib.**




Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, Aqrar Subsidiya Şurası kənd təsərrüfatı bitkiləri üzrə baza məbləği 200 manat olmaqla 2025-ci ildə əkin əmsalları və əkin subsidiyasının məbləğini müəyyən edib. Bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin, eləcə də bu ilin noyabrında Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişiklikləri üzrə Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) çağırışları nəzərə alınaraq iqlim dəyişikliklərindən təsirlənən kənd təsərrüfatı sektorunda 2025-ci ildən etibarən sudan səmərəli istifadənin və ətraf mühitin qorunmasının dəstəklənməsi məqsədilə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrinə görə 60 manat məbləğində əlavə əkin subsidiyası müəyyən edilib. Eyni zamanda, bu il sentyabrın 1-dən gələn il mayın 31-dək 1500 tingin əkildiyi tarlaqoruyucu zolaqların hər hektarına görə 1000 manat məbləğində subsidiya veriləcək.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, işğaldan azad edilmiş ərazilərdə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrində becərilən dənli və dənli paxlalılara görə isə 400 manat məbləğində əkin subsidiyası müəyyənləşdirilib. Digər ərazilər üzrə bu məbləğ suvarılan və suvarılmayan əkin sahələri üçün müvafiq olaraq 290 manat və 230 manat təşkil edəcək. Yeri gəlmişkən, gələn ildən etibarən təkrar əkinlərə görə subsidiya yalnız suvarılan ərazilərə şamil ediləcək.

Bu il ölkədə avtomobil benzini və dizel yanacağının qiymətlərinin artımının müəyyən hissəsinin kompensasiya edilməsi məqsədilə 2025-ci ildə dənli və dənli paxlalılar, kartof, tərəvəz və yonca bitkiləri, habelə təkrar əkinlər üzrə əkin subsidiyası artırılıb. Belə ki, şuranın qərarına əsasən, çəltiyin əsas və təkrar əkinləri üçün hər hektara görə müvafiq olaraq 380 manat və 120 manat subsidiyanın verilməsi nəzərdə tutulub. Müasir suvarma sistemləri ilə təchiz olunmuş və bu tip suvarma sistemləri olmayan qarğıdalı sahələrinin hər hektarına görə isə müvafiq olaraq 290 manat və 230 manat əkin subsidiyası veriləcək. 2025-ci ilin məhsulu üçün kartof, tərəvəz, bostan bitkiləri əkilmiş və müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrin hər hektarına görə müvafiq olaraq 360 manat, 310 manat və 280 manat subsidiya veriləcək. Müasir suvarma sitemləri olmayan əkin sahələri üzrə isə bu məbləğ müvafiq olaraq 300 manat, 250 manat və 220 manat təşkil edəcək.

Aqrar Subsidiya Şurası meyvəçilik sahəsinə də dəstəyi getdikcə artırır. Qeyd edək ki, intensiv meyvə bağlarına damcı suvarma sistemi ilə təmin olunmuş alma, armud, gilas, albalı, gavalı, şaftalı (nektarin), ərik və alça bitkiləri üzrə 1 hektara minimum 650 ədəd və badam bitkisi üzrə 1 hektara minimum 278 ədəd vegetativ calaqaltı tingin əkildiyi bağlar, xurma və nar bitkiləri üzrə 1 hektara minimum 450 ədəd, limon, kinkan, portağal, naringi və feyxoa bitkiləri üzrə 1 hektara minimum 650 ədəd, qoz bitkisi üzrə 1 hektara minimum 238 ədəd, əzgil, zoğal, iydə, əncir, zeytun və digər bitkilər üzrə 1 hektara minimum 330 ədəd tingin əkildiyi bağlar, fındıq bitkisi üzrə isə 1 hektara minimum 330 ədəd ocağın olduğu bağlar daxildir. Subsidiya veriləcək digər meyvə bağlarında 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib. Şuranın qərarına əsasən, 2024-cü ilin sentyabrın 1-dən dekabrın 31-dək intensiv fındıq, nar və zeytun bağlarının hər hektarına görə müvafiq olaraq 4400 manat, 3000 manat və 5600 manat məbləğində əkin subsidiyası veriləcək.

Yeri gəlmişkən, bu ildən əkin subsidiyası veriləcək meyvə bağlarının siyahısına qoz, alma, armud, gilas, püstə, xurma (xirnik), badam, qarağat, böyürtkən və qaragilə (mavigilə) də əlavə edilib. Ölkənin ayrı-ayrı bölgələrində müasir suvarma sistemləri əsasında yetişdirilmiş yeni meyvə bağlarının hər hektarı üçün isə 3 min manatdan 15 min manatadək əkin subsidiyasının verilməsi nəzərdə tutulur.

Bu ildən kənd təsərrüfatı bitkiləri üzrə məhsul subsidiyasının siyahısı da genişləndirilib. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci ildə pambıq, şəkər çuğunduru, soya və tütün bitkiləri üzrə yalnız məhsul subsidiyası veriləcək. Belə ki, bu il soya üzrə əkin subsidiyası da ləğv edilərək məhsul subsidiyasına keçilir, qarğıdalı və günəbaxan üzrə isə həm əkin, həm də məhsul subsidiyası veriləcək. 2025-ci ildən pambıq, şəkər çuğunduru, tütün və soya üzrə məhsul subsidiyaları müasir suvarma sistemlərinin tətbiqi baxımından fərqləndirilib. Fermerlər müasir suvarma sistemləri ilə təchiz olunmuş əkin sahələri üzrə tədarük məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 210 manat, Virciniya sortu üzrə yaş tütünün hər tonuna görə 36 manat, quru tütünün hər tonuna görə 220 manat, yaş tütünün hər tonuna görə 22 manat, şəkər çuğundurunun hər tonuna görə isə 19 manat məhsul subsidiyası alacaqlar. Müasir suvarma sistemləri ilə təchiz olunmamış əkin sahələrindən yığılan məhsula görə isə bu məbləğ bir qədər az olacaq.

Ölkəmizdə ərzaqlıq buğda üzrə məhsul subsidiyasının verilməsi və qiymət fərqinin kompensasiyası üzrə dəstək tədbirləri hazırda da davam etdirilir. "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli fərmanının 5-ci hissəsinə müvafiq olaraq 2024-cü ildə məhsul tədarükü dövründə hər ay üzrə təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının məbləği, Aqrar Subsidiya Şurasının bitkiçilik sahəsində 2024-cü il üzrə bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsinə dair 2023-cü il 24 avqust tarixli qərarı ilə müəyyən edilmiş məhsul subsidiyasının məbləği (hər ton üçün 100 manat) ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli sərəncamı ilə müəyyən edilmiş ərzaqlıq buğdanın dövlət tədarük qiyməti (hər ton üçün 400 manat) ilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hər ay üçün elan edilən ərzaqlıq buğdanın idxal qiymətinin orta statistik göstəricisi arasındakı fərqin (orta idxal statistik göstərici dövlət tədarük qiymətindən aşağı olduqda) cəmi kimi müəyyən edilib.

# Yevlaxda ilk iri püstə bağı

**İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Yevlax Pilot Aqroparkın rezidenti "İSFA" MMC Azərbaycanda ilk dəfə olaraq püstə bağı salacaq. Bunu MMC-nin təsisçisi və direktoru Samir Xeyirbəyov deyib.**



Bu ilin noyabr ayında aqroparkın ərazisində ABŞ-dan alınan "UCB-1" calaqaltısı üzərinə püstə tinglərinin əkiləcəyini bildirən direktorun sözlərinə görə, bu üsulla daha qısa zaman ərzində məhsul əldə etmək mümkün olacaq. Belə ki, adi halda püstə tingləri 9-10 ildən sonra meyvə verdiyi halda, "UCB-1" calaqaltısı üzərinə əkilən tinglər 3 ildən sonra meyvə verməyə başlayır.

"Hazırda 10 min ədəd hazır püstə tingi var ki, onları da 30 hektara yaxın ərazidə əkmək mümkündür. Bu il aqroparkın 20 hektar ərazisində həmin tinglər hesabına yeni püstə bağı salınacaq, qalan 10 hektarlıq ərazi üçün nəzərdə tutulan tinglər isə digər fermerlərə satılacaq"– deyə o əlavə edib.

S.Xeyirbəyov onu da bildirib ki, hazırda yerli istehsal olmadığından Azərbaycan bahalı məhsul sayılan püstəni idxal edir. Bağın məhsulu isə gələcəkdə daxili tələbatı ödəməklə yanaşı, ixrac da edilə bilər.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi”

*Bu layihədə 1,1 min kilometrlik sualtı, 95 kilometrlik yerüstü kabel xəttinin çəkilməsi nəzərdə tutulub*

**Macarıstanın Baş naziri Viktor Orbanın mətbuat katibi Zoltan Kovaç “X” sosial şəbəkəsində ölkəsinin xarici işlər naziri Peter Siyartoya istinadla Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyadan olan enerji operatorlarının tezliklə “yaşıl” enerji sahəsində tərəfdaşlıq haqqında yenilənmiş sazişi imzalamağı planlaşdırdıqlarını bildirib.**




Z.Kovaç daha sonra “yaşıl” enerjinin Azərbaycan və Gürcüstandan Macarıstan və Rumıniyaya idxal etməyə imkan verən layihənin praktiki icrasına yaxınlaşdığını, bununla bağlı Macarıstan–Azərbaycan–Gürcüstan–Rumıniya tərəfdaşlığına dair Buxarestdə keçirilən görüşdə milli təhlükəsizliyin əsas elementi kimi enerji təhlükəsizliyinin vacibliyinin vurğulandığını, eyni zamanda, “Azərbaycan–Gürcüstan–Avropa Qara dəniz vasitəsilə “yaşıl” enerji dəhlizi” layihəsinin Gürcüstan və Azərbaycandan yeni enerji mənbələrinin reallaşacağına şərait yaradacağını, bununla da Macarıstanın enerji istehlakında dayanıqlığının artacağını qeyd edib.

Paylaşımda, həmçinin layihədə iştirakçı ölkələrin elektrik enerjisi şirkətlərinin birgə müəssisə yaradılması və tezliklə “yaşıl” enerji sahəsində tərəfdaşlıq haqqında dəyişdirilmiş sazişin imzalanmasının planlaşdırılması diqqətə çatdırılıb. Məlumatda belə layihələrin uğurunun çox vaxt maliyyələşdirmədən asılı olduğu, Avropa İttifaqının bu layihəyə lazım olan infrastrukturun inkişafı üçün maliyyə dəstəyi göstərəcəyinə ümid edildiyi bildirilib. Paylaşımın sonunda 1100 kilometrlik sualtı kabelin uzunluğuna görə rekord olacağı və layihə başa çatdıqdan sonra “yaşıl” enerjinin idxalının asanlaşacağını vurğulayıb.

Xatırladaq ki, Rumıniyanın paytaxtı Buxarest şəhərində “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə 8-ci Nazirlər–Rəhbər Komitənin iclası keçirilib. Energetika Nazirliyindən aldığımız məlumata görə, toplantıda Azərbaycanı energetika naziri Pərviz Şahbazov, Rumıniyanı energetika naziri Sebastian-İoan Burduja, baş katib Mirça Abrudean, Gürcüstanı Baş nazirin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Macarıstanı isə xarici işlər və ticarət naziri Peter Siyarto təmsil ediblər. Görüşə Bolqarıstan, Avropa Komissiyası, ötürücü sistem operatorları və CESI şirkətinin nümayəndələri də qatılıblar.

İclasda layihənin CESI şirkətinin həyata keçirdiyi texniki-iqtisadi əsaslandırmasının cari vəziyyəti, birgə müəssisənin təsis edilməsi ilə bağlı görülən işlər, “yaşıl” enerji dəhlizinin fiber-optik komponenti, həmçinin Bolqarıstanın layihəyə inteqrasiyası imkanlarına və digər istiqamətlərə dair məsələlər müzakirə edilib.

Pərviz Şahbazov “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi” layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatının bu ilin noyabrında Bakıda keçiriləcək COP29 çərçivəsində planlaşdırıldığını vurğulayaraq prosesin intensivliyini gerçəkləşdirəcək tövsiyələr verib. Nazir, həmçinin layihənin statusu, digər komponentləri, atılacaq növbəti addımlar, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq “yaşıl” enerji dəhlizinin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

Nazir daha sonra deyib: “Bu gün birgə müəssisənin təsis sənədlərinin imzalanması ilə layihəmiz yeni mərhələyə qədəm qoyur. Birgə müəssisə – Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti layihənin texniki-iqtisadi əsaslandırmasını maliyyələşdirəcək, texniki-iqtisadi əsaslandırmanın hazırlanması və icrası proseslərinə nəzarətə məsul, iştirakçı ölkələr tərəfindən həvalə edilən tədbirləri həyata keçirən qurum kimi fəaliyyət göstərəcək. “Yaşıl” enerji dəhlizinin əsas resurs mənbəyi olan Azərbaycan Avropa ölkələrinin bərpaolunan enerji sahəsində də əsas tərəfdaşlarından biri olacaq”.

Müzakirələrdən sonra Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın sistem operatorları (“AzərEnerji”, “Gürcüstan Dövlət Elektrosistem”, “Transelectrica”, MVM) arasında birgə müəssisənin Buxarest şəhərində yaradılmasını nəzərdə tutan “Səhmdar müqaviləsi”, həmçinin iclasın yekunlarına dair protokol imzalanıb. Birgə müəssisə və İşçi qrupa müəyyənləşdirilən müddət ərzində layihənin texniki-iqtisadi əsaslandırmasının tamamlanması üçün məsləhətçi şirkətlə birgə prosesləri sürətləndirmək, nazirlərin növbəti görüşünədək birgə müəssisənin fəaliyyət planının hazırlanması və layihə üzrə biznes modellərlə bağlı məsləhətləşmələrə başlamaq tapşırılıb.

“Yaşıl” Enerji Dəhlizi Birgə Müəssisəsinə rəhbərliyin rotasiyaya əsaslanması, həmçinin Fiber-Optik Kabel Xəttinə dair tapşırıqların və Bolqarıstanın layihəyə inteqrasiyası ilə bağlı məsələlərin dördtərəfli layihənin texniki-iqtisadi əsaslandırmasında ehtiva edilməsi razılaşdırılıb. Bundan başqa, ümumi və qarşılıqlı maraq doğuran layihələrin ikinci siyahısı ilə əlaqədar 2024-cü ilin sentyabr ayında Avropa Komissiyası tərəfindən başladılmış proses çərçivəsində status üçün kollektiv şəkildə müraciət barədə razılığa gəlinib. COP29 İqlim Liderlərinin Sammiti zamanı layihəyə həsr olunmuş yüksək səviyyəli tədbirin keçirilməsinə də dəstək ifadə olunub. Yekunda nazirlərin Buxarest görüşünün nəticələrinə dair brifinq keçirilib.

Xatırladaq ki, 2022-ci il dekabr ayının 17-də imzalanan “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”də Rumıniya ilə respublikamız arasında bərpaolunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsi nəzərdə tutulub və 1000 meqavat gücündə 1195 kilometr (1,1 min kilometr sualtı və 95 kilometr yerüstü) uzunluğunda sualtı elektrik kabelinin tikintisi qərara alınıb. Bu anlaşma ilə Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi və Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsası qoyulub.

Layihənin əhəmiyyətini nəzərə alan Dünya Bankının İcraçı Direktorlar Şurası elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı vasitəsilə Qara dənizin dibinin geofiziki və geotexniki tədqiqatlarının aparılmasının maliyyələşdirilməsi üçün 35 milyon dollar məbləğində krediti təsdiqləyib. Avropa İttifaqı (Aİ) isə Şərq Tərəfdaşlığı İnvestisiya Planına əsaslanaraq layihəyə 2,3 milyard avro ayırmaq niyyətini bəyan edib. Eyni zamanda, Avropa Yenidənqurma və İnkişaf Bankı bu layihəyə dəstək məqsədilə müzakirələrə başlayıb.

Yeri gəlmişkən, ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, “yaşıl” enerji təchizatçısına çevrilməyi planlaşdırır. Çünki Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, respublikamızın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. “Yaşıl” enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən, külək enerjisi üzrə 3000 meqavat, günəş enerjisi üzrə 23000 meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Əlbəttə, bu göstəricilər xarici strateji investorların Azərbaycanın enerji bazarı üçün maraqlı olmasını deməyə əsas verir.

Xəzər regionundan Aİ ölkələrinə Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsi 4 qiqavata qədər “yaşıl” enerjinin ötürülməsini asanlaşdıracağı gözlənilir. Eyni zamanda, bu layihə ilə yanaşı, Xəzər regionundan Aİ-yə “yaşıl” hidrogenin çatdırılması üçün sistemin yaradılması da diqqətdə saxlanılır. Artıq Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya istiqamət götürəcək bu layihənin texniki-iqtisadi əsaslandırılması sonuncu mərhələyə qədəm qoyub. Layihənin texniki-iqtisadi əsaslandırılmasını İtaliyanın CESİ şirkəti həyata keçirir. Texniki-iqtisadi əsaslandırmanın bu ilin sonuna qədər hazır olacağı gözlənilir. Araşdırmalar nəticəsində elektrik kabelinin optimal xarakteristikası müəyyənləşdirilib, tikinti xərcləri hesablanıb və layihənin iqtisadi təhlili aparılıb. Həmçinin kabelin quru və dənizdəki hissələrinin ilkin marşrutu təhlil olunub, layihənin icra planı və satınalma strategiyası hazırlanıb. Dəniz dibinin geotexniki, geofiziki, ekoloji və arxeoloji tədqiqatlarının aparılması üçün zəruri işlərin təsviri və tenderlə bağlı texniki tapşırıq da tərtib olunub.

# Sahibkarların “yaşıl” layihələrinə “yaşıl” işıq

**“Yaşıl biznes”lər dayanıqlı istehsala nail olunmasında, resurs və enerji səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır. Sahibkarların “yaşıl” layihələri müxtəlif dövlət dəstəyi mexanizmləri vasitəsilə, o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən dəstəklənir.**

“Yaşıl” layihələri olan sahibkarlıq subyektləri qrant, “Startap” şəhadətnaməsi, daxili bazar araşdırmasının aparılması, təlim, sərgilərə çıxış kimi dəstək alətləri üçün KOBİA-ya müraciət edirlər. İndiyədək KOBİA kiçik və orta biznesin “yaşıl” layihələrinin inkişaf etdirilməsinə və “yaşıl” iqtisadiyyata keçidə töhfə verə biləcək 19 layihəyə qrant ayırıb, 10-a yaxın “Startap” şəhadətnaməsi verib. Agentlik kiçik və orta biznes subyektlərinin bərpaolunan enerji qaynaqlarından elektrik enerjisi istehsal edə bilən şarj stansiyasının və şarj cihazının istehsalı üçün lazımi proqram təminatının hazırlanması, aşağı temperaturlu geotermal suların istiliyindən səmərəli yolla elektrik və istilik enerjisinin alınması, smart polimer kompozisiya materiallarından yararlanmaqla binalarda enerji sərfiyyatının azaldılması, “ağıllı” suvarma texnologiyasının yaradılması və praktiki fəaliyyətinin araşdırılması kimi layihələrə 338 min manatdan çox qrant ayrılıb.



Alternativ içməli su mənbəyinin yaradılması, üzvü tullantıları emal edərək yem istehsalında istifadə oluna biləcək protein, yağ və yüksək verimli gübrənin istehsalı, kənd təsərrüfatında suvarma səmərəliliyinin artırılması üçün “ağıllı” su depolayıcı materialın hazırlanması və s. layihələr üçün kiçik və orta biznes subyektlərinə vergi güzəştini nəzərdə tutan “Startap” şəhadətnamələri verilib. Təkrar emal və tibbi tullantıların zərərsizləşdirilməsinə dair sahibkarların müraciəti əsasında daxili bazar araşdırmaları da aparılıb.

Eyni zamanda, KOBİA tərəfindən sahibkarlara “yaşıl” iqtisadiyyatla bağlı təlim və məsləhət xidmətləri göstərilib. Təkcə 2024-cü ildə sözügedən agentlik Bakı şəhərində, Lənkəran, Şəki və Xaçmaz rayonlarında 140-a yaxın kiçik və orta biznes subyektinin iştirakı ilə “Yaşıl iqtisadiyyat və yaşıl biznes”, “Yaşıl maliyyələşmə”, “Yaşıl innovasiyaların inkişafında mövcud imkanlar, çətinlik və perspektivlər” mövzularında təlim, seminar və maarifləndirmə tədbirləri təşkil edib.

# Rəqəmsallaşma ətraf mühitə zərərli təsiri azaldır

**Dünən Bakıda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və BMT-nin Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə “Kağızsız Hökumət: Rəqəmsallaşma və İnnovasiyanın Ətraf Mühitə Təsiri” adlı beynəlxalq tədbir keçirilib.**



“29 iqlim söhbəti: COP29-a gedən yol” proqramı çərçivəsində reallaşdırılan tədbirdə nazir müavini Samir Məmmədov Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizədə fəal rolunu vurğulayaraq rəqəmsallaşma və innovasiyanın gücü ilə ətraf mühitin mühafizəsi, eləcə də dayanıqlı inkişafın gerçəkləşdirilməsi prinsiplərinin gələcəyə baxışın əsasını təşkil etdiyini bildirib. S.Məmmədov COP29 sammitinin ölkəmizin rəqəmsal transformasiya və innovativ həllərlə dayanıqlılıq, “yaşıl” iqtisadiyyat, o cümlədən təbiətin qorunması üzrə təşəbbüslərin nümayişi baxımından mühüm önəm daşıdığını diqqətə çatdırıb.

Tədbirdə dünyanın hər yerindən uğurlu modellər və strategiyalar nümayiş etdirilərək rəqəmsal transformasiya və ekoloji davamlılığın kəsişməsi araşdırılıb. Birgə müzakirələr və bilik mübadiləsi vasitəsilə iştirakçılar tərəfindən həm ekoloji, həm də sosial rifahı dəstəkləyən effektiv rəqəmsal strategiyaların həyata keçirilməsi ilə bağlı bir sıra təşəbbüslər irəli sürülüb.

# COP29 könüllüləri üçün ekotəlimlər



**Bakıda COP29 könüllüləri üçün “Eco Enacthon” adlı interaktiv layihə həyata keçirilib. Layihə COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə reallaşdırılıb. Könüllülər iki gün ərzində aktual ekoloji problemlərin həlli istiqamətində orijinal və innovativ layihələrin hazırlanması ətrafında birləşiblər.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin məlumatına görə, 29–30 avqust tarixlərində Heydər Əliyev Mərkəzində keçirilən təlimin ilk günündə könüllülər ixtisaslaşmış ekspertlərin iqlim dəyişmələri və dayanıqlılıq, tullantıların idarə edilməsi və çeşidlənməsi kimi müxtəlif ekoloji mövzularda, eyni zamanda, dayanıqlı biznes ideyalarının təkmilləşdirilməsi, məhsul brendlərinin yaradılması və idarə olunması kimi praktiki mövzularda apardıqları təlimlərdə iştirak ediblər.

Əldə edilən nəzəri və praktiki biliklər proqramın ikinci günündə təşkil olunan ekoloji layihə müsabiqəsində öz tətbiqini tapıb. Belə ki, “Eco Enacthon” yarışının qaydalarına əsasən, bir neçə komandaya bölünən könülüllər gün ərzində verilən tapşırıq və mövzular üzrə öz layihələrini təkmilləşdirərək münsiflər heyəti qarşısında təqdim ediblər. Komanda ruhunu möhkəmləndirən və birgə səylərin vacibliyini bir daha nümayiş etdirən “Eco Enacthon” çərçivəsində könüllülər dayanıqlı enerji həllərindən innovativ tullantıların idarə olunması təşəbbüslərinə qədər müxtəlif sahələri əhatə edə biliblər. Nəticədə, ən kreativ yanaşma ilə işlənilən və daha çox aktuallıq kəsb edən layihələr münsiflər heyəti tərəfindən qalib elan edilib, müvafiq komanda üzvlərinə mükafatlar təqdim olunub.

Xatırladaq ki, iqlim dəyişikliklərinin təsirlərinin qarşısının alınmasında gənclərdə innovativ düşüncənin təşviqi və mövcud problemlərə fərqli yanaşmanın stimullaşdırılmasına, aktiv və təşəbbüskar gənclərin potensialının dəstəklənməsinə xidmət göstərən bu layihə könüllülərə öz ideyalarının daha sərbəst ifadə edilməsi və tətbiqi, bunun üçün müvafiq sahələrdən olan ekspertlərdən dəyərli mentor məsləhətlərinin alınması üçün platforma rolunu oynayıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Ağaqulu Niftəliyev – 80

# “Səkkizinci zirvə”nin kölgəsi

**Aranda doğulsa da, dağ adamına daha çox oxşayır. On görə ki, kölgəli adamdır. Axı deyirlər aranın kölgəsi olmur, aranda insan özü arana kölgə salır. Ancaq qoy dağlar da yadından çıxarmasın ki, bəzən bir adamın kölgəsində yüzlərlə insan sığınacaq tapır və bu kölgə dağların arana saldığı kölgə kimi heç də qaranlığa çevrilmir. Haqqında danışmaq istədiyim Ağaqulu Niftəliyev də belə ağayana kişilərdəndir...**

Yaxşı adamlar elə nağıl kimidir. Onlara biri vardı və həmişə də var olaraq qalacaq demək daha düz olar. Deyirlər, yaxşı adamlar cənnətə düşməz, onların düşdüyü yer cənnət olar. Bu mənada, sağlığında cənnəti qazananlardandı Ağaqulu Niftəliyev. Ağaqulu müəllimdən söz düşəndə tanıyanlar onu birmənalı şəkildə yaxşı kişi kimi xarakterizə edirlər. Dağ vüqarlı bu kişi ömrünün səkkizinci onilliyini də gənclik şövqü ilə yola salır.



O, bu dünyaya Ucarın Boyat kəndindən yola çıxanda İkinci dünya müharibəsinin qurtarmağına hələ səkkiz ay qalırdı. Dünyanın belə ağrılı, kədərli vaxtında dünyaya səs salmaq da hər oğulun qismətinə düşmür. Onun doğulduğu Boyat “Kitabi-Dədə Qorqud” dastanında hadisələrin cərəyan etdiyi coğrafi adlardan biridir. Azərbaycan xalqının formalaşmasında əsas tayfalardan biri də Boyat tayfası olub. Həmin tayfanın söylədikləri nəğmələr isə Boyat tayfasının nəğmələri, yəni bayatı adı altında termin kimi formalaşıb. Bu mənada, Ağaqulu Niftəliyevin müdrikliyinin, ağsaqqallığının haradan qanadlandığı başadüşüləndir.

Onun dünyaya gəlişi yayın axırlarına – sentyabrın 5-nə düşüb. Sentyabrın yarıdan çoxu yayın payına düşsə də, nədənsə bu ay payızdan sayılır. Bəlkə də, elə bu səbəbdəndir ki, Ağaqulu müəllimdə yay istiliyi də var, payız sərinliyi də...

Dünyada yaşayan insanların sayı nə qədərdisə, o qədər də dil var deyirlər. Bu gün doğulan hər körpə uşaqla dünyaya yeni bir dil doğulur. Xalq havayı yerə demir ki, “filankəsin” dilini tapmaq lazımdı. Bu mənada, Ağaqulu müəllimin dilini tapmaq çox sadədir, hamının başa düşdüyü bir dildi, uşaqla uşaq dilində, böyüklə böyük dilində danışmağı bacarır.

İnsan oğlu doğulandan ölənədək özünə tərcümeyi-hal yazır. O, bunu özü istəmədən yazır. Adam var, onun tərcümeyi-halı özündən böyük görünür, oxuyursan, qurtarmır, oxuyursan, o adam gözündə böyümək əvəzinə daha da kiçilir. Adam da var onun tərcümeyi-halı çox qısadır, beş-on sözlükdür, birnəfəsə oxunur, bütün detalları ilə yadda qalır. Ömrü boyu tərifdən, boş-boş sözçülükdən uzaq olan Ağaqulu Niftəliyevin də tərcümeyi-halı belədir:

1950-ci ildə doğulduğu Ucarın Boyat kəndindəki yeddiillik məktəbin 1-ci sinfinə gedib. 1957-ci ildə Göyçay Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumuna daxil olub. Texnikumu bitirdikdən sonra istehsalatda və kəndlərindəki məktəbdə çalışıb. 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunub. Ali təhsilini başa vurduqdan sonra təyinatla Saatlı rayonuna ədəbiyyat müəllimi göndərilib. 1971-ci ildə Bakıya qayıdaraq bir müddət Təhsil Nazirliyinin Təchizat İdarəsində işləyib, sonra isə “Azərbaycan gəncləri” qəzetində əvvəl ədəbi işçi, sonra isə şöbə müdiri vəzifəsində çalışıb. 1978-ci ildə Bakı Ali Partiya Məktəbinə qəbul olunub. 1980-ci ildə bu məktəbi bitirərək “Kommunist” qəzetində (hazırkı “Xalq qəzeti”) baş müxbir vəzifəsində işə başlayıb, şöbə müdiri kimi fəaliyyətini davam etdirib. 1997-ci ildən AZƏRTAC-da müxbir, bölmə müdiri olub. O, burada işlədiyi 17 il ərzində həm də AZƏRTAC-ın Həmkarlar İttifaqı Komitəsinin sədri olub.

O, agentliyin həmkarlar ittifaqı təşkilatına sədrlik edərkən özünəməxsus bir ədalət meyarı yaratmışdı. Hər ay 3 əməkdaşa yardım yazırdı. İndi də həmkarlarımızın çoxu deyir ki, heç xəbərimiz olmadan Ağaqulu müəllimin işçisi İsabala gəlirdi ki, bəs sənə yardım yazmışıq, buyur pulunu.

Gördüyü işlərin müqabilində Ağaqulu Niftəliyev bəzi fəxri adlar, mükafatlar da alıb. Belə ki, 2000-ci ildə AZƏRTAC-ın 80 illiyində ölkə başçısının müvafiq sərəncamı ilə Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinə görə “Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülüb. AZƏRTAC-ın 85 illiyində isə informasiya işinin təşkili və mətbuatın inkişafındakı xidmətlərinə görə ölkə başçısının sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib. 2013-cü ildə “Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 20 illik yubileyi döş nişanı”na layiq görülənlər arasında o da olub. Mən hələ aldığı digər çoxsaylı fəxri fərmanları, medal və təşəkkürnamələri saymıram. Bilirəm ki, saysam özünün də xoşuna gəlməz. Ona görə ki, həmişə Məmməd Arazın bu misrasını misal çəkirdi “Şöhrətini yaşadan az yaşayır”.

Özü həmişə deyir ki, ipə-sapa yatmayan, çox nadinc, emosional biri olub. Amma ədəbiyyat, kitab onu elə rəndələyib ki, özü də bilmədən bütün xarakterini dəyişib. Onunla hər söhbətdən götürəcəyin, öyrənəcəyin çox şeylər var. Hər söhbət gələcəyə bir işıq, bir körpü salır. Tanıyanlar yaxşı bilir ki, o, həmişə and içəndə “Bərəkət haqqı” deyir. Bilirsiniz niyə, axı, o bərəkətin – çörəyin Qurandan əvvəl gəldiyini yaxşı bilir.

Ağaqulu müəllim ömrü boyu başqalarının uğurunu özününkü sayaraq sevinməyi bacarıb. Çox maraqlı tövsiyələri var. Təəssüf ki, bir çoxunu unutsam da, biri heç yadımdan çıxmaz. Deyir: “Əgər sənin deyəcəyin bir kəlmə xoş söz kiminsə könlünü açacaqsa, onu heç vaxt əsirgəmə”.

Ağaqulu Niftəliyev həm də bir sülh adamıdır, onun missiyasında barışdırmaq, görüşdümək, düzüb-qoşub razılığa gətirmək var. Mən nə filosofam, nə ilahiyyatçı. Amma insanların bir qədər bu dünyada çox yaşamasının mənim düşüncəmdə çox böyük hikməti var. İki halda insan bu işıqlı dünyada bəzən çox qala bilir. Birinci, cəza kimi, ikinci, elədikləri yaxşılıqlara mükafat əvəzi. Tam əminəm ki, Ağaqulu Niftəliyevə bu ömür mükafat kimi verilib. Müdriklər söyləyiblər ki, getmədiyin yer sənin deyil. Bəlkə də, o, bu səbəbdən tez-tez yolunu doğulub boya-başa çatdığı yurddan salır.

Deyirlər ki, xoşbəxtlik nisbidir, saatla, günlə, bəzən də anla gəlir. Deyə bilmərəm, onun bu yaşadığı 960 ayın payına neçə gün, neçə saat xoşbəxtlik düşüb. Amma bildiyim odur ki, o, övladları, nəvələri, dürüstlüyü, sadiqliyi, nəfsinə hakimliyi, ən əsası isə könül rahatlığı ilə xoşbəxtdir. Allah bu xoşbəxtlikləri ona çox görməsin. Sonrakı yubileylərində görüşmək ümidi ilə onu təbrik edirəm.

***Ab lla SUVAR,***
***AZƏRTAC-ın müxbiri***

Epidemioloji durum

# Meymunçiçəyinin ölkəmizdə yayılma ehtimalı yoxdur

**Son günlər yerli və xarici mətbuatda “Mpox” viruslar ailəsindən “Ro” indeksi – yoluxduruculuq qabiliyyəti yüksək olan yeni “Glade 1b” ştammının yayılması barədə həyəcanlı xəbərlər verilir. Bildirilir ki, qabaqlayıcı tədbirlər görülməzsə, dünya miqyaslı ağır nəticələr istisna olunmur. Artan narahatlığı nəzərə alaraq, Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru, “XQ”-nin tibb üzrə eksperti Musa Qəniyevə müraciət etdik. Professor infeksiyanın elmi-tibbi mahiyyətini belə açıqladı:**



– İngiliscə meymunçiçəyi virusu “monkeypox virus” adlanır. “Mpox” onun qısa adıdır. Yəni “Mpox” elə meymunçiçəyi virusu deməkdir. Bu yeni ad ona Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsilə 2022-ci ilin noyabr ayında verilmişdir. Söhbət hansısa yeni virusdan getmir. “Glade” sözü isə xəzinə, ocaq, yəni virusun endemik məkanı deməkdir. “Glade I”, meymunçiçəyi virusunun Mərkəzi Afrika, Glade II isə Qərbi Afrika ştammlarıdır. Yəni burada da yeni bir məqam yoxdur.

“Glade Ib” ÜST-nın bəzi ekspertlərinin söylədiyi kimi, 2022-ci ildə yayılan “Glade II”nin deyil, Mərkəzi Afrika ştammının, yəni “Glade I”in mutantıdır. Onun 4 struktur elementindən üçünün – E-örtük təbəqə, N-nukleokapsid və M-membran-, nuklein ardıcıllığı və kəmiyyət sıralanması ana virusdan fərqlənmir, birə-bir yenilikdir.

Sıralanmada nisbi fərqlilik “S-spayka” zülalında müşahidə edilir. Bu hal letallığın zəifləməsi, “Ro” indeksinin nisbi artımının təsdiqidir. “S-spayka” zülalında baş verən “nöqtə mutasiyası” “Glade Ib”nin hormonal sistem və əlaqə toxumalara affinliyində nisbi fəallığa səbəb olub. Bunu virusun insandan insana yoluxmasında əsas yolun təmas – qucaqlaşmaq, öpüşmək, intim yaxınlıq olduğunu söyləyən ÜST ekspertlərinin ortaq qənaəti də təsdiq edir. İddia olunur ki, intim yaxınlıqda yoluxma riski, hətta xəstəlikdən sağaldıqdan sonra 12 həftə müddətində də saxlanılır.

Musa Qəniyev bu virusla bağlı öncə də məlumat verdiyini, mövzuya təkrar qayıtmağın vacibliyini belə əsaslandırdı:

– Bilirik ki, ali məktəblərdə dərslərin başlanmasına sayılı günlər qalıb. Rəsmi statistikaya görə, yeni tədris ilində dünyanın 93 ölkəsindən 7 min 700 tələbə bakalavr, magistr və s. üzrə ölkəmizə qayıdacaq. Bu tələbələr arasında Afrika ölkələrindən olan tələbələr də az deyil. Odur ki, bütün hallarda diqqətli olmalı və sayıqlıq itirilməməlidir.

Düzdür, bu virusun yayılmasına səbəb olan bir çox “anormal” ünsiyyət formaları xalqımıza yaddır. Yalnız görüşərkən, qucaqlaşıb öpüşmək hələ də qalır. Mən bu haqda dəfələrlə yazıb xəbərdarlıq etmişəm. Bir daha bildirirəm ki, tək “Mpox” deyil, istənilən virusdan 90 – 95 faiz qorunmanın yeganə yolu əks cinslərin, xüsusən, kişilərin opüşməsi kimi arzuolunmaz haldır. Bu vərdişə birdəfəlik son qoyulmalıdır.

“Mpox” infeksiyasına gəlincə, deyə bilərik ki, hazırda dünyada bu virusa yoluxma 0,0006 faiz, ölüm halı isə, 0,00002 faiz nisbətindədir. Yəni bu virusun endemik ocağından xaric, dünyada, hətta, epidemiya törətmək ehtimalı belə yoxdur.

Azərbaycanda isə, bu ehtimal mütləq sıfır faizdir.

Professorun fikirlərinə əlavə olaraq qeyd edək ki, ölkəmizə virusun gəlmə ehtimalı nə qədər az olsa da, insanlarda təşviş, həyəcan var. Bu, ondan irəli gəlir ki, xalqımız, eləcə də bütün dünya əhalisi COVID-19 pandemiyası kimi bəla ilə üzləşdi. Nə qədər insan həyatını itirdi.

Pandemiyanın insanlara mənfi təsiri tam sovuşmayıb və mütəxəssislərin fikrincə, fəsadlar hələ uzun müddət özünü göstərəcək. Belə problemlər yaşanmasın deyə ayıq-sayıqlığı əldən vermək olmaz. Azərbaycanın səhiyyə qurumları da hər hansı infeksiyanın qarşısını almağa həmişə səfərbərdir. Ölkədə isə, hələlik, epidemioloji durum sabitdir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Musiqi mədəniyyətimizin zəngin saxlancı



**Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi mədəni irsimizə aid sərvətlərin saxlanc yeri olmaqla bərabər, elmi və maarifçilik fəaliyyəti də göstərir. 1967-ci ildən fəaliyyət göstərən muzeydə hazırda 60 mindən çox eksponat qorunub saxlanılır.**

Çox maraqlı tarixi olan qədim musiqi alətləri muzeydə qayğı ilə qorunur. Orta əsrlərdə istifadə olunmuş, lakin tədricən unudulmuş musiqi alətlərindən çəqanə, çoğur, bərbəd, rübab, rud, ud, nüshə, səntur, çəng, setar, dümbək kimi yadigarlar dünənimizin cal-çağırlı aləminə pəncərə açır.

Qədim alətləri 1990-cı illərdə sənətşünaslıq elmləri doktoru Məcnun Kərimov yenidən bərpa edib. Bu alətlər əsasında muzeyin Qədim Musiqi Alətləri Ansamblı yaradılıb. Dördsimi olan çəqanə 19-cu əsrin sonlarında Azərbaycan ərazisində istifadə edilib. Onu kamançanın “ulu babası” da adlandırırlar. Çoğur sazın qopuzu əvəzləməsi dövründə ortaya çıxıb. İfası daha çox sazın səsini xatırladır. Bərbədin isə maraqlı tarixi var. Adından göründüyü kimi, bu aləti Bərbəd adlı şəxs yaradıb. O, öz dövrünün mahir musiqiçisi sayılıb. Alətin özəlliyi odur ki, yalnız qırmızı çinar ağacından hazırlanır. Onun üzərində yerləşən səs dalğalandırıcılar da məxsusi düşünülüb.

Otaqda nadir bir tar diqqətimizi çəkdi. Məşhur tarzən Şirin Axundova məxsus bu alətin tarixi 1908-ci ilə aiddir. Keçəçi oğlu Məhəmmədin yaşı 1 əsrdən çox qədim qavalı da eksponatlar cərgəsində tarixiliyi ilə seçilir. XVIII əsrə aid bişmiş gil və dəridən hazırlanmış nağara, görkəmli tarzən Qurban Pirimovun tarı da çağdaş musiqisevərlərdə böyük maraq doğurur.

Növbəti otaqda aşıq sənətinə qanad taxan saz, zurna, nağara, balaban və digər musiqi alətləri toplanıb.

Aşıq Hüseyn Saraclının şəxsi əşyaları – sazı, kəməri və çəkmələri, Aşıq Ələsgər, Aşıq Barat, Aşıq Xanlar, Aşıq Sabirə aid sazlar da buradadır. 2 musiqi aləti isə qeyri-adi quruluşu və tarixi ilə heyranlıq yaradır. Onlardan biri 1940-cı illərdə Şuşada hazırlanmış gümüşlə bəzədilən zurnadır. Digər alət isə Vasili Zimovun 1930-cu illərdə düzəltdiyi əsa-sazdır. Bağlananda əsa, açılanda sazı xatırladan musiqi aləti muzeydə nadir eksponatlardan hesab edilir. Deyilənə görə, Vasili Zimov xarici ölkələrin birində bu formada skripka aləti görüb və Bakıya qayıtdıqdan sonra belə bir alət yaratmaq fikrinə düşüb. Sonralar bu alət bir neçə dəfə təkmilləşdirilib.

Növbəti otaqda digər növ musiqi alətləri ilə yanaşı, Azərbaycanın görkəmli musiqiçilərinin əşyaları qorunur. Tarzən Qurban Pirimova dahi bəstəkar Üzeyir Hacıbəylinin hədiyyə etdiyi stəkanaltı ekspozisiyaya əlavə gözəllik verir. Eksponatın üzərində ölməz bəstəkarın “Üzeyirdən Qurbana yadigar” adlı qeydləri yer alıb. Divardan asılmış nəfis tərtibatı və rəng harmoniyası xoş mənzərə yaradan xalça ilə maraqlandıq. Öyrəndik ki, onu Ağdamın Gülablı kənd sakinləri Qurban Pirimova 75 illik yubileyi münasibətilə 1955-ci ildə hədiyyə ediblər.

“Bəstəkarlıq” otağında isə Azərbaycan professional musiqisinin parlaq nümayəndələri Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin və başqalarının fotoları, şəxsi əşyaları və əlyazmaları sərgilənir. Qara Qarayevin kətan üzərində çəkilmiş qeyri-adi portreti də çox möhtəşəm görünür. Əsərin qeyri-adiliyi onun sadəcə quru çay və yapışqandan istifadə olunaraq ərsəyə gətirilməsindədir. Rəsm Ramil Qasımovun əl işidir. Qara Qarayevə məxsus stol və stul dəsti, şkaflar və büst də burada nümayiş olunur.

Digər otaqda dünya xalqlarının musiqi alətlərindən nümaunələr yer alıb. Türkiyə, Hindistan, Çin, İndoneziya, Gürcüstan, Qazaxıstan, Tanzaniya, Qətər, Almaniya və İngiltərənin musiqi alətləri muzeyə gələn hər bir ziyarətçiyə dünya musiqi mədəniyyətinin sərhəd tanımadığını diqtə edir.

Muzeyin “Şuşa musiqiçiləri” salonunda Mir Möhsün Nəvvab, Zülfüqar Hacıbəyov, Niyazi, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov kimi görkəmli bəstəkarlara məxsus materiallar nümayiş olunur. Burada Üzeyir Hacıbəylinin Şərqdə ilk opera olan “Leyli və Məcnun” operasının afişası və ilk tamaşasının “Kaspi” qəzetində dərc olunmuş xəbəri də saxlanılır. Azərbaycanın xalq rəssamı Arif Hüseynovun “Üzeyir dünyası” adlı rəsmində isə Üzeyir Hacıbəyli və onun yaratdığı obrazlar əks olunub.

44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbəmizin qəhrəmanlıq rəmzi kimi Şuşada keçirilən “Xarıbülbül” beynəlxalq musiqi festivalında çəkilən şəkillər də otağı bəzəyir.

Hazırda muzeydə 300-dən çox musiqi aləti qorunub saxlanılır. Bunlar həm Azərbaycan, həm də xarici ölkələrin musiqi alətləridir. Şərq musiqi alətləri daha çox maraq doğurur. Dünyanın müxtəlif xalqlarının musiqi alətləri xüsusi kolleksiyada təqdim edilir. Bundan əlavə, muzeydə 12 nadir musiqi qutusu mühafizə olunur. Keçəçioğlu Məhəmməd, Həqiqət Rzayeva, Xan Şuşinski, Qurban Pirimov, Hüseyn Saraclı kimi muğam və aşıq sənəti ifaçılarına, milli bəstəkarlıq məktəbinin korifeyləri Üzeyir Hacıbəyli, Qara Qarayev, Cövdət Hacıyev və Fikrət Əmirova, vokal məktəbinin ustadları Bülbül və Şövkət Məmmədovaya, ilk azərbaycanlı balerina Qəmər Almaszadə və başqalarına məxsus materiallar muzeyi daha da zənginləşdirir.

Musiqi mədəniyyətimizin qədimliyini əks etdirən və çoxsaylı tarixi eksponatları qoruyub saxlayan bu muzey əsrlərdən-əsrlərə körpü olan tarixi məkandır.

***Ceyhun ALIŞLI***
***XQ***

# SOSİAL YENİLİKLƏR

## Qarabağda 112 özəl məşğulluq qurulub




***Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərimizə köçürülən sakinlərlə bağlı fəal məşğulluq proqramlarını davam etdirir.***

Agentlikdən XQ-yə bildiriblər ki, özünüməşğulluq proqramı çərçivəsində 112 nəfərə mal və materiallar verilərək onlara kiçik ailə təsərrüfatları qurulub. Bu dəstək Füzuli, Şuşa, Xocalı, Laçın, Ağdərə, Zəngilan rayonlarını əhatə edib.

## 537 şəxs üçün peşə kursları

***Agentlik 537 nəfərə isə peşə hazırlığı kursları təşkil edib. Onlardan 302 nəfər agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı Mərkəzlərində, 235 nəfər isə özəl tədris müəssisələrində təlim keçəcəklər.***




Kurslarda əmək bazarının tələblərinə uyğun peşələr üzrə nəzəri biliklər öyrədilməklə yanaşı, müəssisələrdə təcrübə keçmək imkanı da yaradılıb. Peşə məşğələlərinin təşkilində 142 özəl tədris müəssisəsi ilə əməkdaşlıq edilir. Kursların sonunda məzunlara sertifikatlar təqdim edilir və onların yiyələndikləri peşələr üzrə işləmələrinə dəstək göstərilir.

## Naxçıvanda da DOST mərkəzi yaradılır

***Naxçıvan Muxtar Respublikasında da DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılması nəzərdə tutulur. Yaxın günlərdə mərkəzin layihələndirilməsinə başlanacaq.***




Mərkəz muxtar respublikada yaşayan əlillərin, şəhid ailələri üzvlərinin və digər həssas qruplara aid şəxslərin bilik və bacarıqlarının yüksəldilməsinə və sosial inteqrasiya imkanlarının artırılmasına dəstək göstərəcək.

## Bərdədə bərpa xidmətləri

***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Bərdədə yerləşən Qarabağ Regional DOST Mərkəzindəki “RehaPoint” bərpa məntəqəsində bölgə sakinlərinə ambulator xidmətlər göstərir.***

2023-cü il dekabrın 1-dən fəaliyyət göstərən məntəqədə indiyədək 1000-dən çox şəxs tibbi-bərpa xidmətləri ilə təmin edilib. Əlillər burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətlərindən yararlanırlar.

Məntəqədə əlillər bərpa vasitələri ilə də təmin edilirlər. Ötən dövrdə məntəqədə əlillərə 500-dək köməkçi avadanlıq verilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Bakıda "I Beynəlxalq Şah İsmayıl Xətai konfransı"

## *Qüdrətli hökmdar, sufi filosof və istedadlı şairin irsinə yeni baxış*

**Orta əsrlərin möhtəşəm Azərbaycan Səfəvi dövlətinin qurucusu, qızılbaş sufi təliminin yaradıcısı, anadilli xalq şeirini yazılı poeziyamıza gətirmiş Şah İsmayıl Xətainin vəfatının 500 illiyi ölkəmizdə və Türk dünyasında geniş qeyd edilir.**





AMEA Tarix və Etnologiya İnstitutunun Türkiyənin Hacəttəpə Universiteti ilə birgə təşkil etdiyi I Beynəlxalq Şah İsmayıl Xətai konfransı bu tarixi fenomenə çağdaş baxışın zənginliyini və rəngarəngliyini əks etdirdi. Qardaş ölkədən gəlmiş alimlərin və türkdilli xətaisevərlərin iştirak etdiyi elmi məclisdə çoxsaylı məruzə və çıxışlar dinlənildi, geniş müzakirə aparıldı.

Dünən AMEA Mərkəzi Elmi Kitabxanasında keçirilən açılış iclasında giriş sözü söyləyən Tarix və Etnologiya İnstitutunun direktoru, professor Kərim Şükürov bildirdi ki, bugünlərdə ölkəmizdə və xaricdə Şah İsmayıl Xətainin əbədiyyətə qovuşmasının 500 illiyinə həsr edilmiş elmi məclislərdə və anım mərasimlərində daha bir türk imperiyası qurmuş qüdrətli hökmdarın, dini-siyasi cərəyan yaratmış filosofun və istedadlı şairin zəngin siyasi-ədəbi irsi yeni gerçəkliklər baxımından nəzərdən keçirilir, bu nadir şəxsiyyətin Azərbaycan və Dünya tarixindəki yeri bir daha dürüstləşdirilir.

Alim qeyd etdi ki, Səfəvilər imperiyasının timsalında mərkəzləşmiş Azərbaycan dövlətinin yaranması orta əsrlərdə yeni dövrün, milli-mənəvi proseslərin başlanması ilə müşayiət olunub. Çağdaş Azərbaycan tarixçilərinin qarşısında duran ən vacib vəzifələrdən biri Səfəvilər dövrünə Dünya tarix elmi müstəvisində baxmaq, yenidən tarix yazmaqdan daha çox yazılanları obyektiv şəkildə qiymətləndirmək, düzgün nəticələr çıxarımaqdır. Bu məqsədlə indiki məclisin davamı olaraq ölkəmizdə 2–3 ildən bir "Beynəlxalq Şah İsmayıl Xətai konfransı" keçiriləcək.

Konfransda Azərbaycanda "səfəvişünaslıq" məktəbinin formalaşmasında görkəmli alimlərimiz Oqtay Əfəndiyevin, Şahin Fərzəliyevin və başqalarının xüsusi rolunun olduğu, ölkəmizdə yeni "xətaişünaslar" nəslinin yetişdiyi vurğulandı. Qeyd edildi ki, Tarix və Etnologiya İnstitutunda ötən ay dünyasını dəyişmiş Şahin Fərzəliyevin xatirə mərasimi keçiriləcək, onun tərcümə edib hazırladığı "Əhsənul-təvarix" əsərinin təqdimatı olacaq.

Konfransda Türkiyənin Hacı Bayram Vəli Universitetinin professoru Əhmət Taşğın Şah İsmayıl Xətainin hakimiyyətinin, siyasi-hərbi, eləcə də yaradıcılıq fəaliyyətinin türk–müsəlman dünyasına böyük təsir göstərdiyini, onun tarixdəki rol və mövqeyinin yenidən dəyərləndirilməsinin vacib olduğunu söylədi. Məclisə onlayn qoşulan Hacəttəpə Universitetinin professoru Ceng Güray bildirdi ki, Şah İsmayılın hökmdar kimi siyasi kimliyi, eləcə də şair obrazı daim maraq doğurur və tədqiqatlarda bu 2 irsin bir-birinə sıx bağlı öyrənilməsi zəruridir.

Plenar iclasın sonunda Xətai heyranları Əziz Ərdoğan və Fəxrəddin Saleh Şah İsmayılın məfkurəvi şeirlərini saz havalarının müşayiəti ilə ifa etdilər.

Conra professorlar Eynulla Mədətli, Mehman Süleymanov, Namiq Musalı, Füzuli Bayat, Tofiq Nəcəfli və Əhmət Taşğının moderatorluğu ilə davam edən 2 bölmə iclasında Şah İsmayıl Xətainin həyatı və fəaliyyətinin indiyədək az bəlli olan fakt və hadisələrini, onun barəsində tarixi mənbələri incələyən, fərqli baxışlara aydınlıq gətirən çoxsaylı məruzə dinlənildi, geniş müzakirə aparıldı.

Konfransın bağlanışında aparılan elmi diskussiyaların Şah İsmayıl Xətai irsinə yeni baxışı əks etdirdiyi vurğulandı, xətaişünaslığın inkişaf istiqamətlərinə və problemlərinə nəzər salındı.

***Tarix və Etnologiya İnstitutunun elmi işlər üzrə direktor müavini Tofiq Nəcəfli XQ-yə qısa müsahibəsində beynəlxalq konfransın önəmini belə açıqladı:***

– 50-dan artıq tanınmış alim və mütəxəssisin, rəsmi dəvət olunmuş qonaqların iştirak etdiyi bu konfransda Azərbaycan tarixçiləri ilə yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Avstriya, Böyük Britaniya və İran İslam Respublikasından 30 nəfər alim maraqlı məruzələrlə çıxış etdilər.

Dinlənilən məruzələr arasında Şah İsmayıın tarixi şəxsiyyəti, qızılbaşlıq ideologiyası, görkəmli hökmdarın ədəbi-fəlsəfi irsi, xarici siyasəti kimi mövzular aparıcı yer tutdu. Konfrans bir daha göstərdi ki, ilk mənbələri öyrənməklə Azərbaycan tarixinin ayrı-ayrı dövr, hadisə və şəxsiyyətlərini dərindən və əhatəli tədqiq etmək mümkündür. Xalqımızın tarixində əsrlər boyu vahid məkanda yaşayan, eyni dildə danışan və ümumi dəyərlərə şərik olan nəsillərini milli dövlətlər qurmağa səsləyən şəxsiyyətlər çox olmuşdur. Belə korifey simalardan biri də Şah İsmayıldır. Həqiqi alimlər, nüfuzlu tarixçilər üçün Şah İsmayıl böyük dövlət xadimi və istedadlı sərkərdə olaraq qalır. Xalqımızın 5 əsr əvvəlki tarixində isə Şah İsmayıl Azərbaycan torpaqlarını birləşdirmiş, mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratmış şəxsiyyətdir.

Səfəvilər imperiyası Şah İsmayılın rəhbərliyi altında orta əsrlərin ən yüksək mərhələsi kimi əvvəlki və sonrakı Azərbaycan dövlətləri silsiləsində ən önəmli vəsilə olmuşdur. Bu siyasi qurum milli dövlətçiliyin əsasını formalaşdırmaqla Azərbaycan türk tayfalarını birləşdirmiş, siyasi və idarəçilik ənənələrini sonrakı nəsillərə ötürmüşdür.

Azərbaycan xalqının dövlətçilik tarixində böyük bir tarixi dövrü (235 il) əhatə edən qüdrətli Səfəvi imperiyası və onun yaradıcısı görkəmli dövlət xadimi Şah İsmayıl Səfəvi xüsusi yer tutur. Öz dövrünün beynəlxalq münasibətləri tarixində çox mühüm rol oynayan bu Azərbaycan imperiyası ümumdünya tarixində də dərin iz qoyub. Elə buna görə də Səfəvi tarixi heç zaman öz aktuallığını itirməyib. Şah İsmayıl Səfəvi irsi nüfuzlu tarixçilərin tədqiqat obyekti olaraq qalmaqdadır.

Nəhayət, konfrans iştirakçılarının ümumi qənaəti bu oldu ki, Azərbaycan dövlətçilik tarixində önəmli rol oynayan Şah İsmayıl Səfəvi irsinin layiq olduğu səviyyədə öyrənilməsi üçün yeni bir elmi format ortaya qoyan bu konfrans davamlı olaraq keçirilsin.

**Tahir AYDINOĞLU**
**XQ**

# Türkiyəli alimlər AMEA-da

**Ölkəmizdə səfərdə olan türkiyəli alimlərlə AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin görüşü olub.**

Qardaş ölkənin elmi qurumları ilə yaradılmış geniş əlaqələrin əhəmiyyətindən danışan akademik İsa Həbibbəyli bütün elm sahələrini əhatə edən bu əməkdaşlığın gündən-günə inkişaf etdiyini vurğulayıb.

Ankara Hacı Bayram Vəli Universitetinin Lisansüstü Təhsil İnstitutunun "Ədəb-ərkan" elmi jurnalının rəhbəri – professor, doktor Əhməd Taşğın çalışdığı universitetdə aparılan elmi tədqiqat istiqamətləri barədə ətraflı məlumat verib. Həmçinin rəhbərlik etdiyi elmi jurnalın fəaliyyəti haqqında danışan türkiyəli professor AMEA-nın elmi nəşrləri ilə qarşılıqlı əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə yüksək impakt faktorlu jurnalların elmi bazalara inteqrasiya məsələləri də müzakirə olunub, AMEA ilə Türkiyə universitetinin elmi nəşrlər sahəsində əməkdaşlığının genişləndirilməsi barədə razılıq əldə edilib.



"Ədəb-Ərkan" elmi jurnalının əməkdaşı Hakkı Taşğın və Kastamonu Universitetinin əməkdaşı, doktor Namiq Musalı da görüşdə iştirak ediblər.

**XQ**

**Yeni filmlər**

# "CBC" TV təqdim edir: Fransa Mayotu ölüm adasına çevirib

**Nizami Kino Mərkəzində təqdimatı olan yeni film kinosevərləri və bir çox tanınmış şəxsi növbəti dəfə bir araya toplamışdı. Qəmər Adaları İttifaqının Mayot adasına həsr olunmuş "Mayot. Ölüm adası" filmini "CBC" televiziya kanalı ekranlaşdırıb.**





***Mərasim başlandı. Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov ekran əsərinin əhəmiyyətindən danışdı:***

– Fransanın yeni müstəmləkəçilik siyasətindən əziyyət çəkən müstəqil Qəmər Adaları İttifaqı dövləti və onun tərkib hissəsi olan Mayot adasının ictimai-siyasi xadimləri, diplomatlar, elmi dairələrinin nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, siyasi partiyaların üzvləri Bakıda bir araya gəliblər. Səfər çərçivəsində qonaqlar bir sıra ikitərəfli görüşlər keçirəcəklər.

Sonra film nümayiş olundu.

Filmdə Qəmər Adalarının 1975-ci ildə müstəqilliyini elan etdikdən sonra BMT-yə yekdilliklə qəbul edilməsinə, dövlətin ərazi bütövlüyünün bütün beynəlxalq təşkilatlar tərəfindən tanınmasına baxmayaraq, Fransanın qeyri-qanuni referendumlar keçirərək Mayot adasını işğal etməsi tarixi faktlarla nümayiş etdirilir. "Mayot. Ölüm adası" qısametrajlı filmində Qəmər arxipelaqının çağdaş dövrdə üzləşdiyi faciələr və işğalın nəticələri özünü hərtərəfli göstərir. Fransanın işğal etdiyi Mayot adasında yoxsulluq səviyyəsində yaşayan yerli sakinlərlə buraya köçürülmüş zəngin fransızlar arasında həyat səviyyəsinin fərqi filimdə əsas hədəflər sırasındadır. Filmdə göstərilir ki, Mayot adasında yaşayanların 30 faizindən çoxunun heç bir sənədinin olmadığı da ekran əsərində qabardılır.

Film maraqla qarşılandı və ətraflı müzakirə edildi.

***Mərasimdə iştirak edən Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet təqdimatdan əvvəl jurnalistlərə açıqlamasında dedi:***

– Mayot da digər müstəmləkələr kimi işğal olunub. Hər bir xalq işğala son qoyulması uğrunda mübarizə aparmalıdır. Azərbaycan və Bakı Təşəbbüs Qrupunun fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün Azərbaycan özünü dünyada neokolonializmlə mübarizə aparan dövlətlərə kömək edən bir ölkə kimi tanıdıb. Biz Bakıda konfrans keçirəcəyik. Orada əsas diqqət müstəmləkəçiliyə qarşı mübarizə üsullarını nəzərdən keçirmək olacaq.

***Telekanalın böyük redaktoru Gülzar Mustafayeva ekran əsəri barədə XQ-yə bildirdi:***

– Filmin baş prodüseri "CBC TV"nin rəhbəri Vüqar Xəlilovdur. Ekran əsərinin ərsəyə gəlməsində xarici həmkarlarımız da bizə yaxından kömək ediblər. Bu filmi hazırlayarkən oradakı yerli əhali bizə danışırdı ki, Fransa öz maraqlarını qorumaq üçün müstəmləkə ərazilərinə sakinlərini göndərir. Yerli əhali Qəmər adalarında olan qohumları ilə, ümumiyyətlə, görüşə bilmir. Həmin ərazilərə qaçqın kimi gələnlər isə cinayətkar hesab olunur. Filmdə Mayot adasında yaşayan əhalinin taleyindən bəhs olunur. Burada Fransanın müstəmləkəçilik siyasəti nəticəsində onların üzləşdiyi çətinliklərə nəzər yetirilir. Yerli əhalinin dinlərindən, dillərindən, adət-ənənələrindən məhrum edilməsi əsərdə ön plana çəkilib. Onlar öz ölkələrində hüquqsuz yaşayırlar, amma Fransadan gələn fransızlar Mayot adasında nə istəyirlər edirlər. Yerli əhali isə quldarlıq dövründəki kimi yaşayır. Film əhalinin üzləşdiyi bu və ya digər çətinliklərə, hüquqsuzluğa işıq tutur. 25 dəqiqə davam edən ekran işi rus dilinə tərcümə edilərək, dublyaj olunub.

**Ceyhun BALABƏY**
**XQ**

**Yeni mövsümə hazırlıq**

# Sumqayıt Teatrı: "Missiya" + "Xeyir xəbər"

**Artıq 55 illik yaradıcılıq yolu keçmiş Sumqayıt Dövlət Dram Teatrı yeni mövsümün açılışını 44 günlük Vətən müharibəsində Böyük Qələbəyə həsr olunan iki tamaşa ilə gerçəkləşdirəcək.**



Sentyabrın 20-dən etibarən teatrın səhnəsində nümayiş olunacaq tamaşalardan biri yazıçı-dramaturq Hafiz Ataxanlının "Missiya" mistik qəhrəmanlıq dramıdır. Tamaşaya Xalq artisti Firudin Məhərrəmov quruluş verib. Səhnə əsərinin rəssamı Elşən Sərxanoğludur.

Tamaşada Xüsusi Təyinatlı Dəstənin zabiti Şuşa uğrunda döyüşlərdə ağır yaralanaraq, komaya düşür və ruhlar aləmində 1-ci Qarabağ müharibəsində şəhid olmuş atasını görür. Onlar müharibə haqqında xəyali söhbət edirlər. Əsər xoş müjdə ilə, nikbin ruhda başa çatır.

Tanınmış dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Xeyir xəbər" əsəri də açılış günləri üçün nəzərdə tutulub. Tamaşanı gənc rejissor Fuad Cavadzadə hazırlayıb. Əsər İkinci Qarabağ müharibəsində canlarından keçmiş şəhidlərimizin əziz ruhlarına, qələbənin əldə edilməsində xüsusi rolu olan müharibə veteranlarına, qazilərimizə ithaf olunub.

***Teatrın baş rejissoru Firudin Məhərrəmov bizimlə söhbətində dedi:***

– Yeni mövsümün əvvəlində Sumqayıt səhnəsində daha bir neçə əsər oynanılacaq. Georgi Xuqayevin "Varlı ev" psixoloji dramı dövlət sifarişi ilə hazırlanıb. Artıq son məşqlər gedir, dekorasiyalar qurulur. Mənim quruluş verdiyim həmin tamaşanın ilk nümayişi oktyabrın 5-də olacaq. Bundan əlavə, teatrda Qərbi Azərbaycan İcmasının sifarişi ilə yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Hidayət Orucovun "İrəvanda nəyim qaldı" əsəri də mənim quruluşumda səhnəyə hazırlanır. İctimai-siyasi, tarixi-ideoloji yüklü tamaşanın premyerası oktyabrın sonunda keçiriləcək.



Türk dünyasının ünlü yazıçısı Çingiz Aytmatovun "Dəniz kənarı ilə qaçan alabaş" povesti əsasında hazırlanan tamaşanı isə ilin sonu üçün təhvil verməyi nəzərdə tuturuq.

Rejissor Fuad Kazımov da yeni layihə üzərində işləyir. Milli Qəhrəman Natiq Qasımova həsr olunmuş monotamaşanın məşqlərinə yaxın günlərdə start veriləcək. Sumqayıt teatrı yeni mövsümdə də uşaq və yeniyetmələri unutmayacaq. Şarl Perronun "Sehrin gücü" macəra tamaşası hazırlıq prosesindədir. Premyerası oktyabrın 2-ci yarısında baş tutacaq.

**Ə.DOSTƏLİ**
**XQ**

# Şimal–Cənub dəhlizində "Ulyanovsk–Bakı–Astara" marşrutu

**Ulyanovsk vilayəti ilə Azərbaycan arasında dostluq münasibətləri var. Bu münasibətlər bütün sahələrdə, o cümlədən iqtisadiyyatda möhkəmləndirilir. Hazırda vilayətdən Azərbaycana avtomobil, avtomobil hissələri, neft və qaz sənayesi üçün məhsullar, mebel, qida məhsulları və s. ixrac olunur. Eyni zamanda, elm, idman və mədəniyyət sahələrində də əlaqələr genişlənir.**



Sentyabrın sonuna nəzərdə tutulan "Ulyanovsk (Rusiya) – Bakı (Azərbaycan) – Astara (İran)" marşrutu üzrə birbaşa yük qatarının yola salınması bu əlaqələrin nəticəsidir. Bu barədə Ulyanovsk vilayətinin qubernatoru Aleksey Russkix bildirib. Qubernatorun sözlərinə görə, "Ulyanovsk–Bakı–Astara" yük qatarının ilk heyəti "Orta Volqa–Xəzər–Fars körfəzi" dəhlizi çərçivəsində sentyabrın sonunda yola düşəcək: "Rusiya Dəmir Yollarından şad xəbər gəldi. "Ulyanovsk–Bakı–Astara (İran)" birbaşa yük qatarının marşrutu ilk dəfə təsdiqləndi".

Qatar, azı, 70 müxtəlif modifikasiyalı vaqon, o cümlədən qapalı çənlər, bunker tipli vaqonlardan ibarətdir. Hər bir qatar 3,5 min ton müxtəlif məhsulların – aqrar, ağac emalı məhsulları və sənaye mallarının daşınması üçün nəzərdə tutulub.

Russkix əlavə edib ki, qatarın Azərbaycan, İran və qonşu ölkələrdə istehsal olunan mallarla yenidən yüklənməsi məsələsi də öz həllini tapır: "Qeyd etmək istərdim ki, ixrac qatarı Sovet İttifaqı dövründən bu istiqamətdə hərəkət edən ilk qatar olacaq. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir qoludur. Dəhlizin dəmir yolu bölməsi daşıma qabiliyyətini və həcmini 15 milyon tondan 30 milyon tona çatdırmaq üçün modernləşdirilir.

Qatarın yola düşməsi qərarı isə Rusiya Prezidenti Vladimir Putinin dost ölkələrlə yeni logistik marşrutların inkişafı ilə bağlı göstərişinə uyğun olaraq qəbul edilib və qubernator Aleksey Russkixin Azərbaycana səfəri zamanı ətraflı işlənib. Ulyanovsk vilayəti və Azərbaycan arasında "Ulyanovsk–Bakı–Astara (İran)" ixrac-idxal qatarının istifadəyə verilməsi müzakirə olunub. Layihənin əsas logistik tərəfdaşları ilə bu il mayın 29-da saziş imzalanıb. Həmin sənədlərə əsasən, "AGT Cargo" və "TEZ Logistics" şirkətləri ilə əməkdaşlıq kənd təsərrüfatı və sənaye yüklərinə ekspeditor müşayiətini təmin edəcək. Azərbaycanın ən böyük yük terminalı olan "Abşeron logistika mərkəzi" şirkəti yüklərin saxlanmasını və yenidən bölüşdürülməsini həyata keçirəcək. Qubernator Aleksey Russkix sonra bunları qeyd edib: "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmovla danışıqlar aparılıb. Azərbaycanlı həmkarlarımız və Rusiya Dəmir Yolları ilə birlikdə blok qatarımızın marşrutunun layihələndirilməsi tamamlanıb. Qatarın işə salınması çatdırılma müddətlərini və daşınma xərclərini azaldacaq, həmçinin dayanıqlı hərəkət heyəti yaradacaq. Biz Azərbaycana və Fars körfəzi ölkələrinə tədarükləri sistemləşdiririk. Ulyanovsk vilayətindən və qonşu regionlardan yeni yükgöndərənləri ixraca cəlb edəcəyik".

Marşrut üzrə Ulyanovsk müəssisələri taxıl, un, avtomobil hissələri, tikinti materialları, ağac emalı məhsulları və mebel ixrac edə biləcəklər. Eyni zamanda, Azərbaycan tərəfi də öz mallarını bu qatarlar vasitəsi ilə həm Rusiyaya, həm də Asiya ölkələrinə ixrac imkanları qazanacaq. Bağlanmış sazişlər, həmçinin Ulyanovsk vilayətinin və Azərbaycan Respublikasının müəssisələrinin logistika xidmətlərindən birgə istifadəsini nəzərdə tutur.

"Mənim biznesim" regional mərkəzinin rəhbəri Ruslan Qayetdinov bildirib ki, yüklər yenidən bölüşdürülməsi və daha sonra qonşu regionlara göndərilməsi şərti ilə Bakıdan keçəcək. Qatarın son nöqtəsi İran ərazisindəki Astara olacaq. "Orta Volqa – Xəzər dənizi – Fars körfəzi" logistika layihəsi qərb dəmir yolu dəhlizinin fəaliyyətini təmin edəcək və həm ixrac, həm də idxal yüklərinin ən qısa müddətdə çatdırılmasına imkan verəcək. O, Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə həyata keçirilən "Kiçik və Orta Müəssisələr" və "Beynəlxalq Əməkdaşlıq və İxrac" milli layihələri çərçivəsində baş tutacaq. Layihə Azərbaycana mövcud tədarüklərin, İran, İraq, Əfqanıstana tranzit daşımaların sistemləşdirilməsinə kömək edəcək, həmçinin təkcə Ulyanovsk vilayətindən deyil, həm də qonşu regionlardan yeni yükgöndərənlərin ixrac tədarükünə cəlb olunmasına şərait yaradacaq. Potensial olaraq marşrut hər iki istiqamətdə istənilən yükün çatdırılması üçün əlverişlidir. Bunlar kənd təsərrüfatı və emal məhsulları, tikinti materialları, sənaye malları ola bilər".

Qeyd edək ki, "Orta Volqa – Xəzər dənizi – Fars körfəzi" ticarət və logistika dəhlizinin həyata keçirilməsi Rusiyanın Azərbaycan və Yaxın Şərq ölkələri ilə ticarət dövriyyəsinin həcmini əhəmiyyətli dərəcədə artırmağa, Volqa boyu gəmiçiliyi inkişaf etdirməyə kömək edəcək əsas layihələrdən biridir. Bu çərçivədə Çay və liman infrastrukturunun modernləşdirilməsi gündəmə gələcək.

Bu marşrut Şimal–Cənib dəhlizinin bir qoludur, layihənin Rusiya və Azərbaycan üçün çox əhəmiyyətli olduğunu göstərir. Rusiyanın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun Mərkəzi Asiya sektorunun rəhbəri Stanislav Pritçin bu barədə deyib: "Azərbaycan bir sıra mühüm addımlar ataraq Şimal-Cənub marşrutunun təşviqində mühüm rol oynayır. Dəhliz layihəsinin həyata keçirilməsi həm Cənubi Qafqaz regionunun, həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında töhfədir. Marşrut sayəsində ölkələr arasında ticarət dövriyyəsi iki dəfə artıb, daşımaların qiyməti isə dəniz nəqliyyatı ilə müqayisədə xeyli aşağı düşüb. Şimal–Cənub dəhlizi bizim əsas magistral layihəmizdir. Üstəlik, burada ən diqqətçəkən məqam odur ki, Rusiya və Azərbaycan, öz növbəsində, bütün razılaşmaları yerinə yetiriblər və infrastrukturu genişləndirməyə hazırdırlar. Bundan əlavə, bu, Rusiyanın ticarət əlaqələri üçün bağlanan qərb istiqamətinə alternativ olacaq yeni marşrut açmaq imkanıdır. Azərbaycan üçün isə təbii ki, bu, tranzit potensialını artırmağa və ondan səmərəli istifadəyə imkan verəcəkdir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

---

**Xəyanətin anatomiyası**

# Daşlı bulağın daş yaddaşı

**Qardaşxan Bəylər oğlu Xıdırov Zəngəzur mahalının Şəki kəndində anadan olub. Ötən əsrin əvvəllərində onun adı nəinki Gorus, eləcə də Naxçıvan, Qubadlı, Laçın, Kəlbəcər və Qarabağ bölgəsində dillər əzbəri olub. Qaçaqlığı, igidliyi indi də xalqın yaddaşında, xatirələrdə yaşayır.**



Qardaşxan təsadüfən qaçaq olmayıb. Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra da erməni millətçiləri yenə öz məqsədlərindən əl çəkməyiblər. Onlar qədim oğuz torpaqlarında yaşayan gözəgəlimli igidləri müxtəlif yollarla aradan götürmək üçün hər cür tələ qurublar. Xalqı doğma od-ocağından baş götürüb getməyə məcbur ediblər. Qeyrətli igidlər isə bu haqsızlıqlara dözməyərək erməni cəlladlarına və rus çinovniklərinə qarşı gizli mübarizəyə başlayıblar.

El-obanın sayılan, qorxmaz oğullarından biri olan Qardaşxan da gənc yaşlarından ermənilərə qarşı amansız olub. Buna görə də daşnaklar hər cür yolla onu həbs etməyə çalışıblar. Nəhayət, bəhanə tapıb bir gün onu həbs ediblər. Lakin o, rayon mərkəzinə gedən yolda – Söyüdlü bulaq deyilən yerdən qaçıb. Həmin vaxtdan Qardaşxanın qaçaqlıq həyatı başlayıb. Az sonra onun başına xeyli igid yığışıb və onlar uzun illər Zəngəzur və ətraf bölgələrdə soydaşlarımızı erməni daşnaklarından mərdliklə qoruyublar....

Qardaşxan Bəylər oğlu Xıdırovun qəhrəmanlığı haqqında Xalq yazıçısı Əli Vəliyevin "Qəhrəman" romanında bəhs edilir. Aşıq Şəmşir onun haqqında xatirələrində yazır: " Qardaşxan çox cəsarətli qəhrəman idi. İki dünya bir olsaydı dediyi sözü, verdiyi vədi yerinə yetirməliydi. Bir dəfə Kəlbəcərin Ala qaya kəndində idik. Qardaşxan öz dəstəsi ilə toy məclisinə gəldi. Mübarək elədi, nəmər verdi. Toyda daha da şənlik yaratdı. Gedəndə dedi ki, aşıq Şəmşir, qoy, sənin sazınla mənim beşatılanım Vətənin azadlığı uğrunda həmahəng səslənsin!.."

**...Yamyaşıl otların üstünə sərilmiş yapıncıya bürünüb uzanmışdı, başını yəhərin üstünə qoymuşdu. Gecəni yuxusuz qalsa da yata bilmirdi. Ona rahatlıq verməyən kənddən gələn xəbər idi. Taygöz Sərkisin oğlu Akop yaylaqda iki qadını ağaca bağlatdırıb o ki var döydürmüşdü. Üstündən iki saat keçmiş onlardan biri canını tapşırmışdı. Akop isə öz dəstəsini yığıb gedərkən qışqıra-qışqıra deyirmiş:**

– Bəs, hanı sizin o Bəylər oğlu Qardaşxan? Nə qədər ki, onun başını öz əllərimlə üzməmişəm, sizə dinclik yoxdu...

Döyülməkdən ölmüş qadının dörd uşağı qalmışdı. Körpələrin səsi elə bil Qardaşxanın qulağına dolmuşdu. Nə illah eləyirdisə o iniltilər, fəryadlar kəsilmək bilmirdi. Onu yatmaya qoymayan da elə bu səslər idi. Yuxusuzluqdan gözləri qan çəkmiş, şişmişdi. Elə bil bir ovuc torpaq tökmüşdün çuxura düşmüş gözlərinə, göyüm-göyüm göynəyirdi. Silah gəzdirməkdən, daş-qaya, kol-kos arasında yuva bağlamaqdan qaxaca dönmüş barmaqları ilə hey alnını ovxalayırdı. Çalışırdı ki, dəstədəkilər, xüsusilə, ata kimi hörmət etdiyi, həmişə məsləhət aldığı Hüseyn kişi bu pərtliyi, darıxmaqlığı hiss etməsin, duymasın. Silah yoldaşları Qardaşxanın ürəyindən keçənləri elə bil gözlərindən oxuyurdular. Lakin təkcə Hüseyn kişidən başqa heç kəs ürək edib ona bircə kəlmə də söz deyə bilmirdi. Çünki bilirdilər ki, onsuz da Qardaşxan bu qanı yerdə qoymayacaq. Taygöz Sərkisin oğlu lap dünyanın o başına getsə də Qardaşxan onu tez-gec tapacaq. Bəlkə də iki-üç gün bu qayalıqda yatmaqda da elə məqsədi budur. Ancaq o, fikrini qabaqcadan açıb demirdi. Bu səhər demişdi ki, Hüseyn dayı, ürəyimə damıb ki, gavur oğlu gavur bu gün bu yoldan keçəcək. Neçə nəfər olsalar da gərək Akopu ələ keçirək.

Hüseyn kişi bu söhbətdən sonra Ayazı özlərindən bir qədər aralı olan qoz ağacına çıxarmışdı. Şəki kəndinin yolları bu ağacdan əlin içi kimi görünürdü. Motal Şahverdinin oğlu Ayaz tez-tez aşağıya işarə ilə məlumat çatdırırdı. Onun verdiyi son məlumatda bildirilirdi ki, kəndin Toppuzlu məhəlləsində nə isə böyük yanğın var...

**Araya sükut çökmüşdü. Hamı Qardaşxanın danışmasını gözləyirdi. O isə susurdu. Axırda Hüseyn kişi dilləndi:**

– Oğul, ürəyindən keçənləri bilirəm. Darıxma. "Yüz fikir bir borcu ödəməz", – deyiblər. Qurban olduğum heç kimin haqqını heç kimdə qoymayıb. Səbirli ol. Bax, bu igidlər var ha, hər biri sabah bir obanı qorumağa qadirdi...

**Bu arada İmran daşın dalından çaxıb qaranəfəs dedi:**

– Hüseyn dayı, Ayaz deyir ki, kənd yolunda atlılar var. Bizə tərəf gəlirlər.

**Qardaşxan uzandığı yerdən dik atıldı. Üzünü İmrana tutub:**

– Hərə öz yerində möhkəm dursun. Heç kəs əlini tərpətməsin. Milislər olsa buraxın getsinlər. Yox, o gavur törəməsi olsa, işarəmi gözləyin. Tez uşaqlara çatdır dediklərimi.

Hüseyn kişi qoşalüləni götürüb mamırla örtülmüş iri daşın arxasına keçdi. Daraqdan iki patron çıxarıb tüfəngin gözlərinə qoydu. Sonra səbirsizliklə yola baxmağa başladı…

Az sonra yolda 3 atlı göründü. Onlar bir az irəlilədilər və dayandılar. Ətrafı seyr etdikdən sonra öz aralarında nə isə danışdılar. İkisi atdan düşüb tüfəngini çiyinlərinə aşıraraq dərəyə enən cığırla getməyə başladı. Daşlı bulağa doğru gedirdilər. Arxadakı uzundraz o tərəf-bu tərəfə çox baxırdı. Qabaqdakı isə özündən razı halda yeriyirdi.

Qardaşxan onu tanıdı. Bir anda nifrət hissi boğazını tıxadı. Çətinliklə nəfəs aldı. Döyülən qadınların ah-naləsi, yetim qalan körpələrin qan donduran qışqırığı elə bil indicə qulaq pərdələrini dağıdacaqdı. Əlləri ilə bir anlığa qulaqlarını qapadı. Sonra boyun damarlarını sıxdı. Bir qədər sakitləşdi və özünü ələ aldı...Deməli, yanılmamışdı. Onların buraya gəlişi də, əlbəttə, səbəbsiz deyildi. Şübhəsiz, Qardaşxanın izinə düşmüşdülər. Bəs, niyə belə saymazyana? Cəmi üç nəfərlə? Bəlkə bu, bir tələdi...

Vaxt itirmək olmazdı. Bir də görərdin ki, güllə səsinə Gorusun milis dəstələri töküldü bura.

**Qardaşxan Hüseyn kişiyə dedi:**

– Hüseyn dayı, uşaqlara çatdır ki, atları və atları saxlayanı sakitcə aradan götürsünlər. Taygözün oğlu ilə mən özüm görüşəcəm. Ancaq siz arxadan cığırı bağlayın, özlərini kola-kosa vurub aradan çıxmasınlar.

O, beşatılanı yoxlayıb bir andaca gözdən itdi. Daşlı bulağa tərəf gedirdi. Yenə qulaqlarında uğultu vardı. O səs, o dəhşətli uğultu Qardaşxanın ürəyində nifrət hissini daha da artırır, onu rahat buraxmırdı. Nə qədər özünü ələ almağa çalışsa da, bədəni titrəyirdi...

Yenə gözləri göynəyirdi. Ancaq indi heç nəyin fərqinə varmadan dərəyə enən başqa bir yolla bulağa tələsirdi. O, çoxdan gözlədiyi bu görüşdə deməli və etməli olduğu hər şeyi ürəyində təkrarlayırdı. Bu, başqa görüş olmalı idi. O, görüş yerinə birinci çatdı və ağacın arxasında dayandı. Buradan geniş talanın kənarındakı bulaq aydın görünürdü.

Qardaşxan bulağa tərəf baxa-baxa bir facəni xatırladı. O hadisə mayın son günlərində olmuşdu. Qonşuları Almurad kişinin yeganə oğlu Əhməd bu ətrafda mal otararkən ermənilər tərəfindən qətlə yetirilmiş, meyidi bulağın qaşısındakı ağacdan asılmışdı. Heyvanları isə aparmışdılar. Almurad kişi oğlunun qatilinin kimliyini öyrənəndən sonra xəbər göndərmişdi: mən bu qisası sizdən üzbəüz atışmada alacağam.

Və günlərin bir günü quşu gözündən vuran Almurad kişi silaha sarılaraq həmin erməninin həyatına girmiş, onun üç oğlunu və özünü o dünyaya göndərmişdi. Amma cavan oğlunu itirən Nurxanım arvad havalanmışdı və hər gün kənddə qapıları döyərək hər kəsdən oğlunu görüb-görmədiklərini soruşmuşdu...

– Ara, gördünmü, dedim heç kim ola bilməz. İndi görəsən Qardaşxan hansı ayı mağarındadı...

Bu sözləri deyən Taygöz Sərkisin oğlu idi. O, bulağınn üstünə çatar-çatmaz gödəkcəsini soyunub bulağın kənarındakı daşların üstünə tulladı. Sonra silahı yerə qoydu. Sinəsini açdı. Hiss etmək olurdu ki, içib, kefi kökdür. Geriyə baxmadan ağzını bulağın gözünə dayadı. Qardaşxan beşatılanı qaldırdı. Astaca öz-özünə dedi: –İç köpəkoğlu, iç, doyunca iç...Mən səni su içəndə vurmayacam. Bu, kişiyə yaraşmaz. Gülləni kürəyinə yox, düz ürəyinə sıxacam...

Yoldaşları arxadan gələn "uzun"u da aradan götürmüşdülər. Birdən Akop nə hiss etdisə, geriyə dönmək istədi. Ancaq daha gec idi. Qardaşxan beşatılanı ona tuşlamışdı. Titəyi çəksəydi hər şey bitəcəkdi. Lakin o, atəş açmırdı.

– Tərpənmə! Bulaq suyu ürəyini soyutdusa, indi mənə deyiləsi sözlərini de. Bəylər oğlu Qardaşxan səni eşidir!

Akop tərpənmirdi. Sanki özü boyda kötüyə, daşa dönmüşdü. Çətinliklə nəfəs alırdı. Gözləri isə elə bil indicə yerindən çıxıb Qardaşxana tərəf atılacaqdı. Alnından su süzülürdü. Bu, bulaq suyu deyildi, əcəl təri idi. Özü də hiss edirdi ki, bədəni getdikcə soyuq tərə bələnir. Elə bil dilini yerindən çəkib çıxarmışdılar. Gözləri isə oynayırdı.

**Qardaşxan dedi:**

– Unutma ki, sənin kimi murdarların gəzib dolaşdığı, suyunu içib, çörəyini yediyi bu torpaqlar Taygöz Sərkisin oğlu Akopun yox, Bəylər oğlu qaçaq Qardaşxanın dədə-baba yurdlarıdı. Yüz il də, min il də keçsə, bizim olacaq. Müvəqqəti üstünlüyə, rusların köməyinə bel bağlamayın. Sizin kimi nankorlara torpaq öz sinəsində həmişəlik yer verməz. Yaxşısı budur ki, bizimlə torpaq davası etməyin.

İndi isə get, səni öldürmürəm. Ancaq and iç ki, bir də el-obaya əl qatmayacaqsan. Yadında saxla ki, nə qədər ki, qaçaq Qardaşxan var, bu beşatılan səni izləyəcək...

Akop yenə heç nə demədi, əlləri ilə alnının, üzünün tərini sildi və qəfil yaxınlıqdakı silaha doğru atıldı...

Qardaşxan tətiyi sıxdı. Akop zəhərli ilan kimi qıvrıldı. Sonra xırıldadı. Qardaşxan bir güllə də boşaltdı. Üçüncü gülləyə ehtiyac yox idi. Lakin üçüncü güllə Hüseyn kişinin qoşalüləsindən açıldı.

**Hüseyn kişi:**

– Gördün, necə öz ayağı ilə gülləyə gəldi.

Qardaşxan isə Hüseyn kişini tələsdirdi. Gecikmək olmazdı. Bir azdan yəqin ki, güllə səsinə milis dəstələri tökülüb gələcəkdilər.

İrəmələrin başında ov gözləyən quzğunlar isə Akopun cəsədini didib-parçalamaq üçün hay-küy qoparacaqdılar...

*Səməd MƏLİKZADƏ,*
*yazıçı-publisist*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 192 (30596) 5 sentyabr 2024-cü il, cümə axşamı

# Təmiz qan – sağlam can




**Mütəxəssislər bildirirlər ki, qan dövranı pozulduqda bütün orqanların fəaliyyətində nasazlıq yaranır. Onların fikrincə, damarların işini qaydasında saxlamaq elə xəstəliklərdən uzaq olmaq deməkdir. Bunun üçün insan nə yeyib-içdiyinə mütləq nəzarət etməlidir. Həkimlərin verdiyi açıqlamaya görə, qan dövranına kömək edən və onun işiniləngidən qidaları öyrənmək lazımdır.**

Qan dövranı sisteminin dostları çuğundur, kök, qaraciyər və almadır. Çuğundur damar genişləndirici və qanyaradıcı xüsusiyyətlərə malikdir. Tərkibində dəmir və mis yüksək olduğundan anemiyanın qarşısını almaq üçün qida rasionumuza daxil edirik. Kök çiy şəklində qan dövranını mükəmməl şəkildə stimullaşdırır və pis xolesterinlə mübarizə aparır. Tərkibindəki kalium sayəsində hipertoniya, ateroskleroz və varikoz damarlarında yaxşı kömək edir. Qaraciyər iltihab əleyhinə xüsusiyyətlərə malikdir.

Alma dəmirlə zəngindir. Çox qan itkisi və anemiyada faydalıdır. Tərkibindəki vitaminlər və minerallar kompleksi ürək-damar sistemini gücləndirir. Qəbul edildikdə orqanizmə zərər verən məhsullar isə şəkər, duz və nikotindir. Bunları qan dövranı sisteminin düşmənləri adlandırırlar.

Şəkər, qanı, sözün əsl mənasında, "şərbətə" çevirir və qan damarlarının divarlarını kövrək və həssas edir. Duz aterosklerozun inkişafına səbəb olur və tromb əmələ gəlməsi prosesində fəal iştirak edir. Nikotin ateroskleroz, hipertoniya və ürək çatışmazlığına səbəb olur.

Çalışaq dostlara yaxın, düşmənlərdən uzaq olaq!

*Z.HÜSEYNLİ*
*XQ*

**Zooparkda hadisə**

# Ah, zavallı göyərçin

**Çin zooparklarından birində qəribə hadisə baş verib. Uzun dimdikləri və enli yem kisəsi ilə məşhur olan Qutan göyərçini udmağa çalışıb. Zoopark işçilərindən biri son anda zavallı quşcuğazı onun ağzından xilas edə bilib. Ziyarətçilərin də marağına səbəb olan bu qeyri-adi hadisənin görüntüləri sosial şəbəkələrdə sürətlə yayılaraq, məzəli müzakirələrə səbəb olub.**



Hadisə quşların yemlənməsi zamanı baş verib. Göyərçin ehtiyatsızlıq edərək qutana yaxınlaşıb və bu nəhəng quş dərhal onu dimdiyinə alıb. Yayılan kadrlarda göyərçinin qutanın ağzından çıxandan sonra dərhal oradan uzaqlaşdığı görünür.

Xatırladaq ki, qutanlar həm dəniz, həm də şirinsulu göllərdə yaşayırlar. Onlara həm də balıqyeyən quşlar deyilir. Bu quşlar daha çox xəstə balıqları yeyirlər. Böyük dimdiyinin altında iri kisə yerləşir. Onun vasitəsilə əldə etdikləri "qənimət"i asanlıqla uda bilirlər. Onlar uzun müddət havada qala bilirlər və çox sürətlə uçurlar.

*S.FİDAN*
*XQ*

# Paris Paralimpiadasında daha bir bürünc

**Azərbaycan komandası Paris Yay Paralimpiya Oyunlarında əzmkar mübarizəsini davam etdirir.**



Sentyabrın 4-də millimizin 6 idmançısı mübarizə aparıb. Mötəbər turnirdə Azərbaycan paraüzgüçüsü Raman Salei 100 metr məsafəyə sərbəst üsulla üzmə yarışında gücünü sınayıb. Daha əvvəl 100 metr məsafəyə arxası üstə üzmə yarışında gümüş medal qazanan idmançının çıxışı bu dəfə də uğurlu olub. Finişə 54,21 saniyəyə çatan təmsilçimiz finala vəsiqə qazanıb. Həlledici mərhələdə təmsilçimiz 53.65 saniyəlik nəticə ilə bürünc medal qazanıb.

Parakamandan oxatmada isə kişilərin fərdi yarışında Cahan Musayev 1/16 final mərhələsində mübarizəyə başlayıb. Bu mərhələdə iranlı Məhəmmədrza Əmiri ilə qarşılaşan idmançımız rəqibinə 4:6 hesabı ilə uduzaraq çıxışını başa vurub.

Paraatıcılar Aybəniz Babayeva və Kamran Zeynalov (hər ikisi P4 kateqoriyası) isə 50 metr məsafəyə atəş açmaqda bacarıqlarını yoxlayıblar. Onların heç biri finala yüksələ bilməyib. K.Zeynalov 529 xalla 14-cü, A.Babayeva isə 507 xalla 26-cı olub. Qeyd edək ki, buna qədər 10 metr məsafəyə atəş açmaq üzrə mübarizə aparan Kamran Zeynalov 13-cü, Aybəniz Babayeva isə 14-cü yeri tutmuşdu.

Parapauerliftinq yarışlarında təmsilçimiz Ceyhun Mahmudov (54 kq) çıxış edib. Final mərhələsində çıxış edən təmsilçimiz 10 iştirakçı arasında 8-ci yeri tutub.

Paraatlet Rüfət Rəfiyev (F36 kateqoriyası) isə nüvəitələmə yarışında gücünü sınayıb. Yeddi iştirakçı arasında altıncı yeri tutan Rəfiyev yarışı mükafatsız başa vurub.

Xatırladaq ki, hazırda Azərbaycan komandasının hesabında 3 qızıl, 1 gümüş və 2 bürünc medal var. Qızıl medalları yığmamızın aktivinə İmaməddin Xəlilov (parataekvondo, 70 kq), Səid Nəcəfzadə (T12, uzunluğa tullanma) və Lamiyə Vəliyeva (T13 kateqoriyasında 100 metr məsafəyə qaçış) yazdırıblar.

Raman Salei (100 metr məsafəyə arxası üstə üzmə) gümüş və (100 metr məsafəyə sərbəst üsulla üzmə) bürünc, Sabir Zeynalov (parataekvondo, 58 kq) bürünc medala sahib çıxıb.

*Leyla QURBANOVA*
*XQ*

# Şəhid ailələrinə həsr edilən qələbə

**Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilov (70 kq) Paris Yay Paralimpiya Oyunlarında qələbəsi ilə bağlı fikirlərini bölüşüb.**



O, Azərbaycanda parataekvondo üzrə ilk paralimpiya çempionu olduğuna görə çox sevindiyini deyib. İdmançı qələbəsini şəhid ailələrinə həsr etdiyini bildirib:

– Parisdəki qələbəmi Azərbaycanın şəhid ailələrinə həsr edirəm. Finaldan əvvəl sosial şəbəkələrdə barəmdə yazılan fikirləri oxuyurdum və bu da əlavə motivasiya verirdi. Etimadı doğrultduğum üçün qürur duyuram.

İ.Xəlilov finalda qızıl medal qazanacağına əmin olduğunu da vurğulayıb:

– Özümə inanırdım. Çempion olacağımı bilirdim. Fikrimcə, qızıl medal məndən sonra çıxış edən idmançılarımız üçün də motivasiya oldu. Digər parataekvondoçularımıza da demək istəyirəm ki, məşqlərinə davam etməlidirlər. Əzmkar olsalar növbəti yarışlarda onlar da mənim yerimdə ola bilərlər.

# Səid Nəcəfzadə "bürünc"ü "qızıl"a çevirdi

**T12 kateqoriyasında uzunluğa tullanma üzrə yarışda Paris Yay Paralimpiya Oyunlarının qalibi olan Səid Nəcəfzadə jurnalistlərə açıqlama verib.**



O, Paralimpiya Oyunlarında 2-ci dəfə iştirak etdiyini, budəfəki yarışlarda qələbəyə kökləndiyini qeyd edib:

– Üç il əvvəl "Tokio-2020"də bürünc medal qazanmışdım. Bu, məni Parisdə keçirilən Paralimpiya Oyunlarına daha da yaxşı hazırlaşmağa sövq etdi. Yalnız qələbəyə köklənmişdim. Çox çalışmışdıq. Bura gəlməzdən əvvəl dünya çempionatında qızıl medal qazanmışdım. Favoritlər arasında olduğum üçün çox həyəcan keçirirdim. Sevinirəm ki, qızıl medalı əldə etməyi bacardım. Paralimpiya çempionu olduğum üçün qürur hissi keçirirəm.

İdmançı sosial şəbəkələrdə xalqımızdan dəstək gördüyünü deyib:

– Cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya idmana və paralimpiyaya diqqətlərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Məşqçimə, üzvü olduğum "Neftçi" İdman Klubuna, Milli Paralimpiya Komitəsinə və rəhbərliyinə, Gənclər və İdman Nazirliyinə bu yolda bizə dəstək olduqları üçün minnətdaram.

*L.QURBANOVA*
*XQ*



# "İblis dənizi" gəmi ovlayır

**Okeanların qorxulu sirlərindən danışdıqda ağlımıza, ilk növbədə, Sakit okeanda yerləşən "Bermud üçbucağı" gəlir. O, həqiqətən, yüzlərlə həyatı məhv edən çox sirli yerdir. Amma eyni dərəcədə qorxulu sayılan daha bir yer də var. Çox az adam bu barədə eşidib. Həmin təhlükəli yer "Şeytan üçbucağı" adı alıb.**

Bəzən buna "İblis dənizi" də deyirlər. Sakit okeanda, Yaponiya yaxınlığında (Miyakeçima adasının ətrafındakı sular) yerləşir. "Bermud üçbucağı"nda olduğu kimi, burada da çox sayda gəmi yoxa çıxıb. "İblis dənizi" o qədər gəmiləri udub ki, hətta "Bermud üçbucağı"nın qorxulu şöhrəti onun reputasiyasına uduzur. Bu məkrli sularda Yaponiyanın hərbi gəmilərindəki 700-ə yaxın insan itkin düşüb. Onların yoxa çıxmasının səbəbi indiyə qədər də sirr olaraq qalır.

Mütəxəssislər bir sıra versiyalar irəli sürürlər. Lakin bir məşum hadisədən sonra bu ərazinin araşdırılması dayandırılıb. Bu anomal zonanın sirlərini öyrənməyə gedən bir qrup mütəxəssis izsiz yoxa çıxıb. Ufoloji ədəbiyyatda "İblis dənizi"ndə kabus-gəmilərin və naməlum uçan obyektlərin peyda olduğuna dair iddialara rast gəlmək olar.

*PÜNHAN*
*XQ*

# Yağmursuz bir gün



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 20–25° isti, gündüz 31–36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70–75 faiz, gündüz 40–45 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18–23°, gündüz 32–37°, dağlarda gecə 11–16°, gündüz 20–25° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3807
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00